

# Aİ BİZNES MÜHİTİ HESABATI AZƏRBAYCAN 2018

**Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirləri**

AHK
**Deutsch-Aserbaidschanische Auslandshandelskammer**
Alman-Azərbaycan Xarici Ticarət Palatası

Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir
EU4Business

# Aİ BİZNES MÜHİTİ HESABATI AZƏRBAYCAN 2018

**Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirləri**

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 02 | **Ön söz** | Kestutis Jankauskas, Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri<br>Tobias Baumann, AHK Azərbaycanın İcraçı Direktoru |
| 04 | **Giriş** | Aİ Biznes Mühiti Sorğusu və Hesabatı |
| 05 | **Qısa icmal** | Sorğunun əsas nəticələri |
| 06 | **Fəsil 1** | Aİ şirkətlərinin iqtisadi islahatlara dair fikirləri:<br>Siyasətin yaxşılaşdırılmasına dair imkanlar |
| 12 | **Fəsil 2** | Makroiqtisadi və sektordakı vəziyyət:<br>Aİ biznes perspektivləri |
| 17 | **Fəsil 3** | Yerli biznes mühitinin əsas göstəriciləri:<br>Fəaliyyət və çətinliklər |
| 26 | **Fəsil 4** | Azərbaycan investisiya məkanı kimi |
| 28 | **Nəticə** | Sorğunun nəticələri və gələcək istiqamətlər |
| 29 | **Əlavə** | Metodologiya və Sorğunun təfərrüatlı nəticələri |

# Ön söz



## Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üçün təməlin qoyulması

Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatının 2018-ci il nəşrini məmnuniyyətlə qarşılayıram və tam dəstəkləyirəm. Hər il hazırlanan bu hesabat Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin imkanları və çətinlikləri barədə məlumat əldə etmək üçün önəmli mənbəyə çevrilib. Ötən illərdə hesabat müzakirələr üçün katalizator və Aİ şirkətlərinin narahatlıqlarının və dəyişikliklərə dair tövsiyələrinin Azərbaycan hökumətinə ötürülməsi üçün vasitə rolunu oynayıb və əminəm ki, bu ilki nəşr də eyni rolu oynayacaq.

Nəşr Aİ və Aİ-ə Üzv Dövlətlərin Azərbaycan hökuməti, ölkədəki Aİ şirkətləri və biznes assosiasiyaları ilə müntəzəm dialoq şəraitində daha çox Aİ şirkətini Azərbaycana cəlb etmək üçün həyata keçirdiyi davamlı işlərlə uyğunluq təşkil edir. Hal-hazırda, Aİ-ə üzv olan 20 ölkədən təqribən 385 şirkət Azərbaycanda biznes fəaliyyəti ilə məşğuldur. Onların bəziləri bir sıra ikitərəfli biznes assosiasiyaları tərəfindən təmsil olunur. Sorğu hesabatında müxtəlif sektorları təmsil edən bir çox şirkətin fikirləri və müfəssəl şərhləri əhatə olunub. Bu, şübhəsiz, ölkədə Aİ şirkətlərinin fəaliyyətini daha da artırmaq məqsədilə görülə biləcək işləri daha yaxşı anlamaq üçün bələdçi rolunu oynayır.

2016 və 2017-ci illər üzrə Aİ Biznes Mühiti Hesabatlarının ilk nəşrləri böhran dönəminə - iqtisadiyyatın şaxələndirilməsi məqsədilə iddialı struktur islahatlarının həyata keçirildiyi dövrə - təsadüf edib. Hazırkı nəşr isə daha əlverişli şəraitin hökm sürdüyü sabitləşən iqtisadi vəziyyətin və daha nikbin iqtisadi perspektivlərin müşahidə olunduğu bir vaxtda hazırlanır. Bu nəşr, eləcə də bu yaxınlarda Aİ və Azərbaycan arasında yenilənmiş və intensivləşmiş əlaqələr kontekstində hazırlanır; belə ki, ticarət və iqtisadi əlaqələr də daxil olmaqla, bir çox sahələrdə Aİ-Azərbaycan tərəfdaşlığını yeniləməyə və canlandırmağa yönəlmiş yeni və müfəssəl razılaşma üzrə aparılan danışıqlar davam edir. Ötən ilin noyabr ayında keçirilən Şərq Tərəfdaşlığı Zirvə Toplantısı biznes sahəsində bir sıra fəaliyyətlərin müəyyənləşdirilməsində əlaqələrimizə əlavə müsbət təkan verib.

Azərbaycanın əsas iqtisadi tərəfdaşı və Azərbaycanda xarici investisiyaların (həm neft, həm də qeyri-neft sektorlarında) və ticarətin böyük hissəsinin mənbəyi olan Aİ bu təşəbbüsdə Azərbaycanın yanındadır. Aİ Biznes Mühiti Hesabatının bu nəşrində Alman-Azərbaycan Xarici Ticarət Palatası tərəfindən toplanılmış ümumi məlumatlar Azərbaycanda aydın şəkildə yaxşılaşan, lakin hesabatın əks etdirdiyi kimi hələ də çətinliklərin mövcud olduğu biznes və investisiya mühitinin hansı sahələri üzrə atılması mümkün olan müsbət addımların müəyyən edilməsində əvəzsiz olacaqdır.



**Kestutis Jankauskas**

Səfir - Nümayəndəliyin rəhbəri

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi



## Biznes etimadında artım – imkanlardan yararlanmaq zamanı

Artıq ardıcıl olaraq üçüncü ildir ki, Alman-Azərbaycan Xarici Ticarət Palatası və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin etibarlı və faydalı əməkdaşlığı nəticəsində Azərbaycana dair Aİ Biznes Mühiti Hesabatı ərsəyə gəlir. 2016-cı ildə ilk sorğunun nəşrindən etibarən bu hesabata diqqətin artdığını müşahidə etmişik və müxtəlif mənbələrdən, o cümlədən Azərbaycan hökumətindən və diplomatik missiyalardan, yerli və beynəlxalq biznes şirkətlərindən müsbət rəy almışıq. Bu ilki sorğuya olan güclü marağın digər göstəricisi sorğu iştirakçılarının sayıdır. Ötən illə müqayisədə, bu il sorğuda iştirak edən şirkətlərin sayı 31% artmışdır.

Son üç ildə Azərbaycan hökuməti bazarda mövcud olan çatışmazlıqların və zəifliklərin aradan qaldırılması üçün əsaslı islahat tədbirləri həyata keçirmişdir. Bu sorğunun əsas nəticələrindən biri odur ki, Aİ şirkətləri islahatları müsbət qiymətləndirir. Deyə bilərik ki, cari iqtisadi vəziyyətin qiymələtləndirilməsində nəzərəçarpacaq müsbət artım müşahidə olunur və bu, bu il Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinə dair nikbin olmağa imkan verir. Bunu, həmçinin sərmayəçilərin etimadında müşahidə olunan artım təsdiqləyir. Bununla belə, Aİ şirkətlərinin hazırkı orta səviyyəlik nikbinliyi rahatlamağa əsas vermir. Əksinə, bu, hökuməti islahatları davam etdirməyə təşviq etməlidir. Aİ şirkətlərinin fikrincə, hökumət hələ də mövcud olan struktur problemlərinin və çətinliklərin aradan qaldırılması üçün daha qətiyyətli və davamlı fəaliyyət planları həyata keçirməlidir.

Hesabatda təqdim olunan məlumatlar hazırkı çatışmazlıqları və Azərbaycanda biznes fəaliyyətinə əngəl törədən amilləri təsvir edir. Bundan əlavə, məlumatlar bu maneələrin mənbələrini müəyyənləşdirməyə yardım edir və beləliklə, yaxşılaşdırılmış tənzimləyici çərçivənin daha da təkmilləşdirilməsində hökumətə dəstək ola bilər. Bu səbəbdən, ümid edirik ki, araşdırmamızın nəticələri ölkə bazarında inkişaf potensialının müəyyənləşdirilməsinə töhfə verəcək. AHK Azərbaycan islahat yönümlü gündəliyi dəstəkləyən və Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinə daha parlaq gələcək təmin edən siyasi kurs üzrə gələcəyə baxışın formalaşdırılması istiqamətində aparılan işi davam etdirmək niyyətindədir.

Avropa İttifaqının Azərbaycandakı Nümayəndiliyinə bu layihənin maliyyələşdirilməsinə dəstək göstərdiyinə və məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirirəm. AHK Azərbaycan adından, həmçinin sorğumuzda iştirak etdiklərinə görə, eləcə də müsahibələrdə və bağlı qrup müzakirələrində öz dəyərli fikirlərini bizimlə bölüşdüklərinə görə Aİ şirkətlərinə təşəkkür edir və minnətdarlığımı bildirirəm.



**Tobias Baumann**
İcraçı Direktor
Alman-Azərbaycan Xarici Ticarət Palatası



# Giriş

Aİ Biznes Mühiti Hesabatı Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin ölkədəki cari iqtisadi vəziyyətə, biznes və investisiya mühitinə dair fikirlərini əks etdirən illik bisnes mühiti sorğusunun nəticələri əsasında hazırlanır. Bu ilki sorğu Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin maliyyə və texniki dəstəyi ilə Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən ardıcıl olaraq üçüncü ildir ki (2018-ci ilin fevral-mart ayları ərzində), həyata keçirilir.

Hesabat Azərbaycandakı cari iqtisadi vəziyyəti, biznes və investisiya mühitini təsvir etməklə yanaşı, əsas diqqəti ölkədə fəaliyyət göstərən Aİ şirkətlərinin üzləşdiyi çətinliklərə və mövcud olan imkanlara yönəltməklə, onların qısamüddətli inkişaf gözləntilərini işıqlandırır. Araşdırma ilk biznes mühiti sorğusunun keçirildiyi 2016-cı ildən etibarən iqtisadiyyatın mühüm sahələrində və əsas biznes faktorlarında müşahidə olunan dəyişikliklərin ardıcıllığını əks etdirən iqtisadi tendensiyalar üzrə istinad rolunu oynayır. Aİ şirkətlərinin ümumi fikirləri hazırkı vəziyyətin qiymətləndirilməsi, ölkədə biznes fəaliyyətinə əngəl törədən amillərin təyin edilməsi və onların aradan qaldırılması üzrə təkliflərin vurğulanması üçün müvafiq tədbirləri müəyyənləşdirir.

## 131 onlayn cavab

Ümumilikdə, ötən illərdə olduğu kimi, sorğu Azərbaycandakı cari iqtisadi vəziyyətə, Azərbaycanın biznes mühitinin fərdi şirkətlərə təsirinə və şirkətlərin demoqrafik göstəricilərinə dair 20 sualdan ibarətdir. Bundan əlavə, şirkətləri yerli təchizatçılarla əməkdaşlıq etməkdən çəkindirən amilləri, onları Azərbaycana sərmayə qoymağa / Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən əsas hərəkətverici qüvvələri və şirkətlərin məhsullarının neçə faizinin idxal olunduğunu müəyyənləşdirmək məqsədilə bu ilki sorğuya 3 yeni sual əlavə olunmuşdur. Bununla belə, müvafiq zaman ərzində müqayisə edilə biləcək məlumat toplusunun əldə edilməsi məqsədilə əsas sualların əksəriyyəti dəyişdirilməmişdir. Məlumatlar arasında mümkün əlaqənin araşdırılması üçün sorğunun nəticələri ötən illərlə müqayisə edilmiş və çarpaz təhlillər aparılmışdır.

Məlumatların keyfiyyət təminatından sonra Azərbaycanda fəaliyyət göstərən və Azərbaycanla əməkdaşlıq edən Aİ şirkətlərinin ölkədəki biznes etimadının qiymətləndirilməsi üçün etibarlı və statistik baxımdan əhəmiyyətli nümunənin əldə edilməsi məqsədilə 131 tam cavab nəzərə alınmışdır. Qeyd edilməlidir ki, cavabların sayı ötən ilki sorğudan 31% daha çoxdur.

## 17 üzbəüz müsahibə

Tamamlanmış sorğuya əlavə olaraq, toplanılmış kəmiyyət göstəricilərini keyfiyyət göstəriciləri ilə dəstəkləmək məqsədilə iqtisadiyyatın 9 mühüm sektorunu təmsil edən 17 Aİ şirkətinin Baş İcraçı Direktorları və digər baş nümayəndələri ilə üzbəüz müsahibələr və bağlı qrup müzakirələri keçirilmişdir. Üzbəüz müsahibələrdə və bağlı qrup müzakirələrində iştirak edən şirkət nümayəndələrinə geniş təcrübələri və dəyərli qeydləri ilə hesabata verdikləri töhfəyə görə minnətdarlığımızı bildiririk.

## 16 təmsil olunan sektor

Sorğuda iştirak edən şirkətlər geniş fəaliyyət sahəsini əhatə edən 16 sənayeni təmsil edir və cavabların əksəriyyəti Peşəkar, Elmi və Texniki  Fəaliyyətlər; Dağ-Mədən, Neft və Qaz; Topdan və Pərakəndə Ticarət; Nəqliyyat və Anbar Təsərrüfatı və Tikinti sahələrindən əldə edilmişdir. Sorğuda iştirak edən şirkətlərin 22 ölkədə baş qərargahı vardır. Onların 23%-i Almaniya şirkətlərini, 20% və 11%-ni isə müvafiq olaraq, Aİ mallarının və xidmətlərinin Azərbaycana idxalı ilə məşğul olan Azərbaycan şirkətləri və Azərbaycanda fəaliyyət göstərən Birləşmiş Krallıq şirkətlərini təmsil edir. Sorğuda iştirak edən şirkətlər eyni zamanda ölçüsünə görə fərqlənir. Belə ki, şirkətlərin 38% və 50%-i müvafiq olaraq (işçi heyəti 9 nəfərədək olan) mikro-müəssisələr və (işçi heyəti 250 nəfərdən az olan) kiçik və orta müəssisələr, 12%-i isə (işçi sayı 250 nəfərdən çox olan) iri müəssisələrdir. Qeyd etmək lazımdır ki, sorğu iştirakçılarının əksəriyyəti Direktorlar / Baş İcraçı Direktorlar (47%) və Müdirlər (23%) olmuşdur. Əlavədə sorğunun metodologiyası daha təfərrüatlı şəkildə izah edilir və cavablar ilə bağlı ümumiləşdirilmiş məlumat təqdim edilir.

# Sorğunun əsas nəticələri

## İqtisadi islahatlar

**TƏKLİF OLUNAN 3 ƏN VACİB İSLAHAT**

- Vergi sistemi **20%**
- Gömrük sistemi **17%**
- Hüquq sistemi **12%**
- Təhsil sistemi **12%**

**82%**
ASAN e-viza portalının effektivliyini yüksək qiymətləndirir

**31%**
Maliyyə Bazarlarına Nəzarət Palatasının siyasətini **səmərəsiz** hesab edir

## Makroiqtisadiyyat və şirkət

**50%**
2018-ci ildə iqtisadi perspektivlərin yaxşılaşacağını gözləyir

**53%**
biznes fəaliyyətlərini genişləndirməyi planlaşdırır

**48%** gəlirlərin artacağını gözləyir

**36%** kapital xərclərini artırmağı planlaşdırır

**35%** işçilərin sayını artırmağı nəzərdə tutur

## Biznes mühiti göstəriciləri

**5 ƏN YAXŞI BİZNES MÜHİTİ GÖSTƏRİCİSİ**

Siyasi sabitlik **51%**

| Göstərici | Yer |
| --- | --- |
| Əməyin dəyəri | 5 |
| İnfrastruktur | 4 |
| Məhsuldarlıq | 3 |
| İxtisas & bacarıqlar | 2 |

**5 ƏSAS BİZNES RİSKİ**

Bazarın qeyri-müəyyən istiqamətdə inkişafı **74%**

| Risk | Yer |
| --- | --- |
| Bürokratiya | 2 |
| İnflyasiya | 3 |
| Kadr çatışmazlığı | 4 |
| Valyuta məzənnəsi | 5 |

# Fəsil 1

# Aİ şirkətlərinin iqtisadi islahatlara dair fikirləri: Siyasətin yaxşılaşdırılmasına dair imkanlar

2015-ci ildən etibarən dünyada neft qiymətlərinin kəskin düşməsi Azərbaycan iqtisadiyatına çox mənfi təsir göstərdi. 2016-cı ildə ölkədə iqtisadi geriləmə başladı və 2017-ci ildə isə demək olar ki, sıfıra bərabər artım müşahidə olundu. Ölkənin maliyyə sektoru isə iki devalvasiyadan sonrakı vəziyyətə uyğunlaşmaq məcburiyyətində qalaraq güclü təzyiqə məruz qaldı. Bununla belə, çətin iqtisadi vəziyyət ölkədə struktur islahatlarının və iqtisadi şaxələndirilmənin gündəliyə gətirilməsinə yeni təkan verdi. 2016-cı ilin dekabr ayında Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun rəqabətədavamlılığının və ixrac potensialının yaxşılaşdırılması üzrə qısamüddətli (2020), ortamüddətli (2025) və uzunmüddətli islahatlar gündəliyini müəyyənləşdirən iddialı Strateji Yol Xəritələri qəbul olundu. Yol Xəritələri kənd təsərrüfatı, sənaye və turizm kimi önəmli sektorları, eləcə də kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, loqistika və ticarət şəbəkələri və ölkənin peşə təhsili və təlimi (PTT) sisteminin müasirləşdirilməsi kimi sektorlararası məsələlərin gücləndirilməsini hədəfləyir.

Strateji Yol xəritələrinə əsasən, dayanıqlı iqtisadi inkişaf yolunun əsasını Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft və özəl sektorun aparıcı rol oynayacağı yeni inkişaf mənbələrinə əsaslanan iqtisadi modelin tətbiqi təşkil edir. Azərbaycana (həm neft, həm də qeyri-neft sektoruna) qoyulan xarici investisiyaların böyük hissəsində payı olan, eləcə də Azərbaycanın ən böyük ticarət tərəfdaşı olan Aİ şirkətləri bu iqtisadi transformasiyada mühüm rol oynaya bilərlər.

Sabitləşən iqtisadiyyat fonunda Strateji Yol Xəritələrində qeyd olunan struktur islahatlarının həyata keçirilməsində "təcililik hissi" zəifləyə bilər. Azərbaycanda "islahatlardan yorğunluq" əlamətləri, yaxud struktur islahatlarının tam qüvvə ilə irəlilədiyi müşahidə olunur? Dünya Bankının və Dünya İqtisadi Forumunun əsas islahat göstəricilərinə əsasən, biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu yaxınlarda kiçik irəliləyiş əldə olunub. Bununla belə, ölkənin investisiya məkanı kimi cəlbediciliyinin və rəqabətədavamlılığının artırılması üçün hələ də bir sıra önəmli islahatların həyata keçirilməsi zəruridir.

# ASAN əsas islahat layihəsi olaraq qalır, yoxlamaların dayandırılması isə müsbət qarşılanır

Seçilmiş Aİ şirkətləri ilə aparılmış müsahibələr və bağlı qrup görüşləri ilə dəstəklənmiş sorğu nəticələri Dünya Bankının və Dünya İqtisadi Forumunun hesabatlarının optimistik/pessimistik nəticələri ilə əsasən üst-üstə düşür.* Biznes mühitində mühüm islahatların aparılmasında müəyyən irəliləyiş əldə olunub və qeyd olunmalıdır ki, ASAN e-viza xidməti və sahibkarlıq fəaliyyəti ilə bağlı yoxlamaların dayandırılması Aİ şirkətləri tərəfindən olduqca müsbət qarşılanır. Bununla belə, islahatlar gündəliyi genişdir və arzuolunan nəticələrin əldə olunması və Aİ biznes rəhbərlərinin mühitin həqiqətən yaxşılaşdığını müşahidə edə bilməsi üçün zaman, davamlı və koordinasiya olunmuş səylər tələb olunur.

Məsələn, bu yaxınlarda (2017-ci ilin dekabr ayında) Kiçik və Orta Sahibkarlığın (KOS) İnkişafı Agentliyinin yaradılması ilə KOS müəssisələri üçün mühitin yaxşılaşdırılması istiqamətində ilk önəmli addımlar atılmış oldu. Qida Təhlükəsizliyi Agentliyinin (2017-ci ilin fevral ayında) yaradılması ölkənin qida məhsullarının ixracında rəqabətədavamlılığının artırılmasında mühüm rol oynaya bilər. Bu yeni təşəbbüslərin nəticə əldə etməsi üçün zaman tələb olunur. Bununla belə, Aİ şirkətlərində gömrüklə bağlı mənfi fikir formalaşır. Belə ki, 2016-ci ildə elektron bəyannamənin tətbiqi üçün həyata keçirilən ümidverici islahatlardan sonra Aİ şirkətləri arasında gömrükdə islahat tempinin zəiflədiyinə dair müəyyən narahatlıqlar yaranıb. Bu səbəbdən, vergi islahatları ilə birlikdə gömrük məsələləri də bu ilki sorğuda islahatların ən zəruri olduğu sahə kimi yer alıb. İslahatların aparılması baxımından Aİ şirkətlərinin önəm verdiyi üçüncü prioritet sahə – qanunun aliliyi və hüquqi dəqiqliyin təminatı da hesabatda narahatlıq doğuran məqam kimi geniş yer alıb.

Aİ şirkətləri hələ də ASAN xidməti (Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi) hökumətin indiyədək həyata keçirdiyi ən səmərəli islahat kimi qəbul edirlər. ASAN e-viza portalının ötən ilki sorğunun hazırlanmasından az öncə, 2017-ci ilin yanvar ayında istifadəyə verilməsinə baxmayaraq, Aİ şirkətlərinin 77%-i onun tətbiqini yüksək qiymətləndirmişdir. E-viza sistemi bütün Aİ ölkələrinin vətəndaşları üçün keçərlidir və Aİ vətəndaşlarına və şirkətlərinə Azərbaycan səfirliyinə getmədən viza üçün müraciət etdikdən sonra 3 gün ərzində viza əldə etmə imkanı yaradır. ASAN xidmətin e-viza prosedurunu il ərzində daha da asanlaşdıraraq xaricilərə ölkənin hava limanında viza verilməsi və ödəniş xidmətinin təmin edilməsi (2018-ci ilin 31 yanvarından) və üç saat ərzində təcili viza verilməsi xidmətinin tətbiqini (2017-ci ilin 30 avqustundan) nəzərə alaraq, bu il daha çox Aİ şirkətinin (82%) onun səmərəliliyini qeyd etməsi təəccüblü deyildir.

ASAN e-viza sisteminin uğurunu və biznes lisenziyalarının Aİ şirkətləri tərəfindən ötən ilki sorğuda (Aİ şirkətlərinin 67%-i bunun səmərəli olduğunu qeyd etmişdir) yüksək qiymətləndirilən ASAN xidmət vasitəsilə verilməsinin daha da artmasını nəzərə alaraq, 2018-ci ilin 1 fevral tarixindən enerji sektorunda icazələrin verilməsi də ASAN xidmətə həvalə edilmişdir. Bu yaxınlarda (14 mart 2018-ci il tarixində) verilmiş fərmana əsasən, e-hökumət üzrə dövlət siyasətinin həyata keçirilməsinin və tənzimlənməsinin ASAN xidmətə həvalə edilməsindən sonra ASAN mərkəzlərinin xidmət çeşidini artıraraq 2018-ci ildə daha çox vergi və gömrük xidmətləri göstərəcəyi gözlənilir.

Şəkil 1: Azərbaycanda struktur islahatlarının səmərəliliyi




*Hesabatların nəticələri haqqında daha ətraflı məlumat üçün Əlavə C-yə baxın.

Prezidentin 1 noyabr 2015-ci il tarixli fərmanına əsasən sahibkarlıq fəaliyyəti ilə bağlı yoxlamalar 30 oktyabr 2017-ci il tarixinədək dayandırılmışdır. Bu moratorium Azərbaycanda aparılan yoxlamaların sayına əhəmiyyətli təsir göstərmişdir. İki illik dövr ərzində biznes müəssisələrində (vergi yoxlamaları daxil olmadan) cəmi 127 yoxlama aparılmışdır.[1] Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə yoxlamaların sayı 60,000 olub.[2] Aİ şirkətlərinin ötən ilki biznes mühiti sorğusunda qeyd etdikləri müsbət qiymətləndirmə də nəzərə alınaraq, sahibkarlıq fəaliyyəti ilə bağlı yoxlamalar üzrə moratorium 2021-ci ilədək uzadıldı. Aİ şirkətləri moratoriumun uzadılması qərarı ilə razıdırlar. Bu ilki sorğuda moratoriumu effektiv kimi qiymətləndirən Aİ şirkətlərinin nisbəti 2017-ci ildəki sorğu ilə müqayisədə 49%-dən 55%-ə yüksəlmişdir.

# Gömrük sisteminin sadələşdirilməsi tədbirləri ilə bağlı Aİ şirkətləri arasında nikbinlik azalmışdır

Ötən ilki sorğuda hökumətin xroniki olaraq qeyri-şəffaf və bürokratik gömrük sistemini müasirləşdirmə səyləri Aİ şirkətləri tərəfindən müsbət qarşılanmışdır. Gömrük rəsmiləşdirilməsində e-bəyannamənin tətbiqində və Gömrük Məcəlləsinin təkmilləşdirilməsində, eləcə də gömrük prosedurunu müəyyən dərəcədə sadələşdirən və qaydaya salan islahatların aparılmasında nəzərəçarpan irəliləyiş əldə olunmuşdur. Bu il, sorğu iştirakçılarının tam yarısı gömrük sisteminin sadələşdirilməsindən məmnunluğunu ifadə etmişdir.

Bununla belə, sorğu nəticələri, müsahibələr və bağlı qrup müzakirələrinə əsasən, gömrük orqanlarından islahat gözləntiləri artsa da, 2017-ci ildə hələ də mövcud olan çatışmazlıqların aradan qaldırılması istiqamətində hər hansı əhəmiyyətli addım atılmayıb. Ənənəvi fiziki yoxlamalardan kağızsız sənədləşməyə keçid və yeni texnologiyaların tətbiqi istiqamətində irəliləyiş zəif olub. Bu istiqamətdə müəyyən gömrük xidmətlərinin 2017-ci ildə ASAN ödəniş portalı vasitəsilə həyata keçirilməsi planları da hələ icra olunmayıb.

**Müsahibələr və bağlı qrup müzakirələri**

*Gömrük islahatlarının həyata keçirilməsinin gecikməsi şirkətlərin müsbət dəyişikliyə olan etimadını sarsıdır. Bu səbəbdən, gömrük qurumları islahatların aparılmasına dair öhdəliklərinə sadiq qalmalıdırlar.*

Beləliklə, Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün ən zəruri olan islahatlar barədə suala cavab olaraq, Aİ şirkətləri vergi sisteminin təkmilləşdirilməsindən sonra (daha ətraflı məlumat növbəti bölmədə təqdim edilib) hökumətin diqqət yönəltməli olduğu ikinci prioritetin gömrük sistemində islahatlar olduğunu qeyd edib.

Müzakirələr zamanı qaçaqmalçılığın və korrupsiya hallarının qarşısının daha yaxşı alınması üçün idarəetmə siyasətlərinin və nəzarət sisteminin daha da müasirləşdirilməsinin önəmi vurğulanıb. Prosedurların müasirləşdirilməsi ilə yanaşı, Aİ şirkətlərinin rəyinə əsasən, şirkətlər və gömrük rəsmiləri arasında əməkdaşlığın inkişaf etdirilməsinə yardım etmək məqsədilə gömrük işçiləri üçün təlimlərin və peşəkar inkişaf proqramlarının sayı artırılmalıdır.

## TƏKLİF OLUNAN 5 ƏN VACİB İSLAHAT

**20%**
Vergi sistemində şəffaflığın artırılması

**17%**
Gömrük sistemində şəffaflığın artırılması

**12%**
Hüquqi sistemdə şəffaflığın təmin edilməsi

**12%**
Akademik və peşə təhsili sisteminin şirkətlərin tələblərinə uyğunlaşdırılması

**11%**
Elektron idarəetmənin təşviq edilməsi

Həmçinin, qeyd etmək lazımdır ki, bu ilki sorğuda e-hökumət sisteminin səmərəliliyi də qeyd olunur. Daha dəqiq ifadə etsək, ötən il e-hökumət Aİ şirkətləri üçün ölkədəki biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün zəruri prioritet islahatlardan ikincisi idisə (26%), bu il həmin faktor üzrə göstərici 11%-dir. Bu isə onu göstərir ki, e-hökumət sistemi və ASAN vasitəsilə xırda korrupsiya hallarının minimuma endirilməsi və bürokratiyanın azaldılması istiqamətində həyata keçirilən tədbirlər yaxşı nəticələr verməyə başlamışdır.

# Son institusional islahatlar ümidvericidir, lakin faktiki nəticələrin əldə olunması zaman tələb edir

Strateji Yol Xəritələrində qeyd olunan müvafiq fəaliyyət planlarına uyğun olaraq, KOS-ların dayanıqlı inkişafına yardım etmək və onların maliyyə resurslarına çıxışını təmin etmək məqsədilə Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi və Kredit Zəmanət Fondu (2017-ci ilin sentyabr ayında) yaradıldı. Azərbaycanda KOS-ların inkişafına maneə törədən əngəllərdən biri kimi lazımi maliyyənin tapılmasında qarşılaşılan çətinliklər göstərilir. Agentliyin və Fondun maliyyə inkluzivliyini artıracağı, sahibkarlara təklif olunan maliyyə xidmətlərini yaxşılaşdıracağı və məlumata daha yaxşı çıxış təmin edəcəyi gözlənilir. Aİ şirkətləri bu son islahatları orta dərəcədə səmərəli hesab edirlər.



**Peşəkar fəaliyyətlər sektorundan Baş Menecer**

*Son islahatların psixoloji effekti etimad yaratsa da, planlaşdırılan tədbirlərin icrasının gözləniləndən daha zəif həyata keçirilməsi onların səmərəliliyini gecikdirir.*

Hələ də davam edən texniki və təşkilati işləri və 2018-ci ildə KOS İnkişafı Agentliyinin nəzdində yeni qurumların (məs., KOS Evi) yaradılacağının planlaşdırıldığını nəzərə alsaq, sorğuda iştirak edən şirkətlər inanırlar ki, bu çərçivələrin faktiki səmərəliliyini yalnız müəyyən zamandan sonra tam qiymətləndirmək mümkün olacaq. Sorğu iştirakçıları yeni (2018-ci ilin yanvar ayında) yaradılmış Qida Təhlükəsizliyi Agentliyi barədə daha nikbindirlər; belə ki, iştirakçıların 40%-i bu qurumu artıq səmərəli hesab edir. Agentliyin beynəlxalq təcrübəyə uyğun olaraq, hal-hazırda bir neçə dövlət qurumu tərəfindən göstərilən xidmətləri bir mərkəzdən təmin edəcəyi və kənd təsərrüfatı və onun ixrac yönümlülüyünü artırmaq üçün nəticələrə əsaslanan islahatlar aparacağı gözlənilir.

2017-ci ildə ölkədə qeyri-neft ixracı 24% artsa da, Aİ şirkətlərinin yalnız 30%-i ixracın şaxələndirilməsinə verilən institusional dəstəyin (məs., Azexport portalı, İxraca Dəstək Mərkəzi) səmərəli olduğunu düşünür, 52%-i isə bu dəstəyi orta səviyyədə qiymətləndirir. Digər xidmətlərin də elektronlaşdırılması üzrə tədbirlər davam edir. Bu tədbirlərin sahibkarlar üçün ixrac prosedurlarını sürətləndirəcəyi gözlənilir. İxrac yönümlü tədbirlərlə bağlı irəliləyişi müsbət qarşılamaqla yanaşı, Aİ şirkətləri belə qənaətdədirlər ki, müvafiq nəzarət orqanları arasında koordinasiyanın səviyyəsi qeyri-kafidir. Onlar daha dəqiq məlumat mübadiləsi, eləcə də ixracın şaxələndirilməsi ilə bağlı fəaliyyətlərin hərtərəfli və davamlı koordinasiyasının vahid çərçivədən aparılması zəruriyyətini vurğulayırlar.



**52%** Aİ şirkəti ixracın diversifikasiyası üçün göstərilən institusional dəstəyi **orta** səviyyədə qiymətləndirir

Hökumətin yerli istehsalçılara və qeyri-neft ixracına dəstək olaraq tətbiq etdiyi daha bir geniş çərçivə sənaye və yüksək texnologiyalar parklarının və aqro-parkların yaradılmasıdır. 2018-ci ilin yanvar ayınadək Azərbaycanda 5 sənaye parkı, 2 yüksək texnologiyalar parkı və 2 aqro-park yaradılmışdır. Onlar xüsusi vergi və gömrük imtiyazları və asanlaşdırılmış inzibati prosedurlar ilə təmin edilmişdir. Aİ şirkətlərinin 47%-i bu təşəbbüsü orta səviyyədə qiymətləndirir. Bundan əlavə, müzakirələrə əsasən, Aİ şirkətlərindən sərmayələrin cəlb edilməsində rəqabət üstünlüyünün yaradılması üçün rezident statusunun verilməsində daha geniş çeşidli imkanlar təklif etmək və daha mülayim meyarlar tətbiq etmək zəruridir.

# Son dəyişikliklər fonunda vergi orqanlarına olan etimadın artacağı gözlənilir, lakin hüquq sisteminə dair narahatlıq davam etməkdədir

2016-ci ildə Aİ Biznes Mühiti Hesabatının ilk nəşrindən etibarən, vergi sistemi ölkəyə sərmaye qoymağı nəzərdən keçirən Aİ şirkətləri üçün davamlı olaraq əsas maneə kimi qeyd edilmişdir. Keçmiş rəhbərliyin müəyyən səmərəli tədbirlər həyata keçirməsinə və bir sıra vergi xidmətlərini elektronlaşdırmasına baxmayaraq, Aİ şirkətlərinin fikrincə,

qeyri-şəffaf və özbaşına vergi yığımları, eləcə də vergi yükünün artırılması Azərbaycanın özəl sektorunun inkişafına maneə törətməkdə davam etmişdir. Bununla belə, 2017-ci ilin dekabr ayından etibarən vergi orqanlarının struktur və rəhbərliyində müşahidə olunan dəyişikliklərdən sonra Aİ şirkətləri bu yaxınlarda vergi islahatlarının aparılacağına dair olduqca nikbindirlər və 2018-ci ilin real islahatlar və şəffaflıq ili olacağını gözləyirlər. Müvafiq olaraq, onlar bu məsələnin hökumət gündəliyinin ön sıralarında yer almasını istəyirlər.

Aİ şirkətləri bu yaxınlarda **vergi islahatlarının** aparılacağına dair olduqca nikbindirlər və 2018-ci ilin real islahatlar və şəffaflıq ili olacağını gözləyirlər

Yeni təyin olunmuş Vergilər nazirinin son bəyanatlarına əsasən, özəl sektorla dialoqa əsaslanaraq vergi qanunvericiliyini müasirləşdirmək və sadələşdirmək istiqamətində geniş işlər aparılır. Vergi Məcəlləsinə düzəlişlər etmək, daha dinamik vergi idarəçiliyi yaratmaq və vergi yoxlamalarının şəffaflığını təmin etmək məqsədilə konkret təkliflərin verilməsi üçün özəl sektora müraciət olunub. Vergi idarəçiliyində sövqedici strukturun yaxşılaşdırılması və özəl sektor və vergi orqanları arasında etimadın yaradılması təbii ki, əsaslı strateji planlaşdırma və güclü siyasi öhdəlik tələb edən çətin vəzifələrdir.

Bu il, daha çox Aİ şirkəti ölkəyə xarici investisiyanın cəlb edilməsində şəffaf və ədalətli hüquq və məhkəmə sisteminin önəmini vurğulamış və onu vergi və gömrük sistemlərindən sonra həll olunmalı növbəti prioritet kimi göstərmişdir. Bu baxımdan, Aİ şirkətləri qərəzli, qeyri-şəffaf və uzun prosedurları olan hüquq sistemini zəruri struktur islahatlarının həyata keçirilməsini təhlükə altında qoyan və beləliklə, investorların etimadını azaldan əsas risklərdən biri kimi qəbul edir. Hökumət şirkətlərin ölkədəki qanunun aliliyinə etimadını artırmaq üçün müəyyən tədbirlər görüb; məsələn, 2016-cı ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası yaradılıb. Bu dövlət qurumu bir növ “biznes ombudsmanı” rolunu oynayır və ölkə qurumlarının qərarlarından narazı qalan şirkətlərə məhkəməyə müraciət etmədən (yaxud məhkəməyə müraciət etmək əvəzinə) narahatlıqlarını Şuraya bildirmək üçün imkan yaradır. Bununla belə, Aİ şirkətlərinin yalnız 29%-i Apelyasiya Şurasını hüquq sistemindən kənarda biznes icmasının hüquqlarının və qanuni maraqlarının qorunmasında səmərəli resurs kimi qiymətləndirir.

# Maliyyə sektorunun perspektivləri tutqun olaraq qalır, təhsil sistemində isə ciddi islahatlara ehtiyac var

Aİ şirkətlərinin ötən ilki sorğudakı əsas narahatlıqlarından biri ölkənin maliyyə sektorunun zəifliyi idi. Bu isə özəl sektora əsaslanan artım üzrə təbii katalizator rolunu oynamağa əngəl törədirdi. İqtisadiyyatda 2014-cü ildən etibarən kreditlərin həcmi nominal ifadədə yarıbayarı, real ifadədə isə üçdə ikiyədək azalmışdır.[3]

Şübhəsiz, 2015-2016-cı ildən etibarən bank sisteminin sağlamlaşdırılması istiqamətində irəliləyiş əldə olunub. Belə ki, 11 bank bağlanıb, 2 bank birləşib və Azərbaycan Beynəlxalq Bankında (ABB) maliyyə restrukturizasiyası aparılıb. Bu proses nəticəsində ABB-nin xarici borcunun əksəriyyəti silinərək hökumətə ötürülüb. Kreditlərin ödəniş müddəti uzadılıb, faiz dərəcələri azaldılıb və ABB istiqraz vərəqələrinin sahibləri xalis cari dəyəri 20% azaltmaq məcburiyyətində qalıblar.[4] Eyni zamanda, hökumət ABB-nin qeyri-işlək kreditlərini öz üzərinə götürərək bank olmayan dövlət kredit təşkilatı Aqrarkredit QSC-yə ötürüb.

ABB-nin restrukturizasiyası bank sektorunun stabilləşdirilməsinə çox yardım etdi və məzənnənin kursunun dollara bağlanılması da müsbət rol oynadı. Kapital qoyuluşu, təminatı və yüksək mənfəət nəticəsində 2017-ci ildə kapital-aktiv əmsalı böhrandan öncəki 15% səviyyəsindən aşağı olsa da, 2016-cı ildə 6%-dən 9%-ə yüksəldi.[5] 2017-ci ildə banklardakı əmanətlərin 66,5%-nin xarici valyutada olması nəticəsində dollarlaşma səviyyəsi yüksək qalsa da, bu, 2016-cı ildəki 80%-lik göstəricidən aşağıdır.[6] 2016-cı ildə sektorun ümumilikdə zərər etməsindən fərqli olaraq, ötən ili mənfəətlə başa vurması müsbət amillərdən biridir.

Bununla belə, bankların ümumi vəziyyəti müəyyən dərəcədə sağlamlaşsa da, nəticələr qeyri-bərabərdir və müəyyən struktur zəiflikləri hələ də qalmaqdadır. Məsələn, 2017-ci ildə sektor ümumilikdə mənfəət əldə etsə də, 30 bankdan 11-i hələ də zərərlə işlədiklərini bildirib. Azərbaycan böyük miqdarda qeyri-işlək kreditlərdən əziyyət çəkir (QİK 2017-ci ilin iyun ayında bütün kreditlərin 23,7%-ni təşkil edib).[7] 2017-ci il ərzində gecikdirilmiş kreditlərin sayı artmaqda davam edib. Bank sisteminin digər zəifliyi daima valyuta məzənnəsinin dəyişkənliyinə məruz qalmasıdır.

Qeyd olunan amillər, həmçinin Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) müstəqilliyini itirməsi Aİ şirkətlərinin 31%-nin (2017-ci ildə 26%-lə müqayisədə) MBNP tərəfindən həyata keçirilən siyasətləri və tədbirləri səmərəsiz hesab etməsini izah edə bilər.*

**31%** Ai şirkətləri MBNP tərəfindən həyata keçirilən siyasətləri və tədbirləri **səmərəsiz** hesab edir

Həqiqətən, ABB-də baş verən böhran Azərbaycanın bank sektorunda böyük mənfi təsirlərə səbəb oldu.
Aİ şirkətlərinin fikrincə, bank sektorunun xarici sarsıntılara qarşı zəifliyinin azaldılması, bankların portfelinin şaxələndirilməsi və maliyyəyə çıxışla bağlı əngəllərin aradan qaldırılması üçün daha dayanıqlı və nəticə yönümlü tədbirlər lazımdır. 2017-ci ildə milli valyutanın stabilləşməsindən və biznes etimadında müşahidə olunan artımdan sonra, 2018-ci ildə planlaşdırılan islahatlar ikirəqəmli inflyasiyanın qarşısının alınmasına, risklərə əsaslanan nəzarətə keçidə və sektorda məlumat axınının yaxşılaşdırılmasına dəstək verməlidir.

**Maliyyə sektorunda çalışan Baş İcraçı Direktor**

*Uzunmüddətli tədbirlər barədə bütün maraqlı tərəflərə məlumat verilməli və maliyyə sektorunun tənzimlənməsi ilə bağlı ortaq fəaliyyət planları hazırlanmalıdır.*

Yuxarıda qeyd olunan nisbi stabilləşməyə sübut olaraq bir faktı qeyd etmək olar ki, ötən ilki sorğuda Aİ şirkətləri maliyyə sektorundakı porblemlərin aradan qaldırılmasını prioritet islahat hesab edirdilərsə, bu ilki sorğuda maliyyə sektorunun stabilləşməsi və şəffaflığı məsələsi vergi və gömrük sistemlərində islahatlardan və ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması tədbirlərindən sonra yer alıb.

Sonuncu məsələyə gəldikdə, ölkədə yüksək ixtisaslı kadrlara tələbatın artdığı bir dövrdə əmək bazarının tez dəyişən tələblərinə cavab verən ixtisaslı peşəkarların mövcudluğu dayanıqlı iqtisadi inkişafda önəmli faktora çevrilir. Ardıcıl olaraq üçüncü ildir ki, Aİ şirkətləri xarici investisiyaların cəlb edilməsi (və ölkədə saxlanılması) üçün başlıca şərtlərdən biri kimi Azərbaycanın ali və peşə təhsili sisteminin daha da inkişaf etdirilməsi zəruriyyətini vurğulayırlar. Bu məqsədlə, Aİ digər beynəlxalq donorlarla birlikdə hökumətin peşə təhsili və təlimi (PTT) sisteminin gücləndirilməsi istiqamətindəki səylərini dəstəkləyir. Bu, öz növbəsində PTT-nin inkişafı üzrə Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, iqtisadiyyatın inkişafına və şaxələndirilməsinə töhfə verə bilər. Bu istiqamətdə ötən ilki sorğu ilə müqayisədə az irəliləyiş qeyd olunsa da, Aİ şirkətlərinə əsasən, PTT müəssisələri və şirkətlər arasında əməkdaşlığı daha da genişləndirmək üçün potensial mövcuddur. İxtisaslı kadr çatışmazlığı baxımından yaşayış icazələrinin verilməsi mövzusu bu ilki sorğuda daha geniş vurğulanıb və onun səbəblərinin və mümkün həllərinin araşdırılması zəruridir.

Aİ şirkətləri xarici investisiyaların cəlb edilməsi üçün başlıca şərtlərdən biri kimi Azərbaycanın **ali və peşə təhsili** sisteminin daha da inkişaf etdirilməsi zəruriyyətini vurğulayırlar



*2017-ci ilin iyun ayında MBNP-nin nizamnaməsində edilən dəyişikliklər onun müstəqilliyini məhdudlaşdırdı. Belə ki, artıq bankların bağlanmasında ali orqanların razılığı tələb olunur.



# Fəsil 2

# Makroiqtisadi və sektordakı vəziyyət: Aİ biznes perspektivləri

Azərbaycan iqtisadiyyatında 2016-cı ildə baş vermiş kəskin geriləmədən (3,1%) sonra, neft qiymətlərinin kəskin düşməsinin və valyuta məzənnəsinin həssaslığının mənfi təsirləri sovuşduqca 2017-ci ildə cüzi artım (0,1%) müşahidə olunub. 2017-ci ildə neft sektorundakı geriləmə (5%) nəticəsində ümumi sənayedə müşahidə olunan geriləmə (4,2%) kənd təsərrüfatı (4,2%) və xidmət sektorundakı (3,5%) artım ilə əvəzlənmişdir. 2016-cı ildə tikinti sektorunda 27,6%-lik kəskin geriləmə müşahidə olunduğu halda, 2017-ci ildə bu göstərici yalnız 1,5% olmuşdur. Bunun əsas səbəbi Şahdəniz qaz yatağında və Cənub Qaz Dəhlizi boru kəmərində aparılan işlər, eləcə də kənd təsərrüfatı və təhsil sahələrindəki dövlət xərcləri olmuşdur.[8]

Neftin qiymətindəki cüzi artıma və nikbin regional (və qlobal) iqtisadi proqnozlara uyğun olaraq, 2018-ci ildə Azərbaycanda ÜDM-in 2% və orta müddətdə isə 4%-ə qədər artması gözlənilir. Bu isə əsasən 2018-ci ildə 4% artması proqnozlaşdırılan qeyri-neft sektoru ilə bağlıdır.[9]

2018-ci ildə qeyri-neft sektorundakı iqtisadi artım əsasən tikinti sektorundakı inkişafla bağlıdır. Məhdudlaşdırıcı fiskal siyasət son illərdə bu sektora mənfi təsir göstərib və 2015-ci ildən etibarən bu sektorda mənfi artım səviyyəsi müşahidə olunub. Bununla belə, hökumətin 2018-ci ildə dövlət investisiyalarının 40% artırılmasına dair planlarına əsaslanaraq, İqtisadiyyat Nazirliyi tikinti sektorunun 2018-ci ildə 15% artacağını gözləyir.

İqtisadiyyatın stabilləşməsinə (2018-ci ildə inflyasiyanın birrəqəmli səviyyəyə düşəcəyi gözlənilir) və iqtisadi perspektivin daha müsbət olmasına baxmayaraq, 2015-2016-cı illərdəki tənəzzülün nəticələri, xüsusən bank sektorundakı həssaslıqlar hökumət tərəfindən hələ də öz həllini gözləyir.

Şəkil 2: Orta məzənnə və xam neftin qiyməti
Mənbə: AMB; EIA (17 aprel 2018)




Şəkil 3: Sektorlar üzrə ÜDM artımı
Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi; Beynəlxalq Valyuta Fondu (17 aprel 2018)



# Aİ şirkətləri arasında ehtiyatlı nikbinlik: həqiqi canlanma, yaxud qısamüddətli müsbət dəyişiklik?

Artan neft qiymətləri və yuxarıda qeyd olunan orta səviyyəli iqtisadi artım nəticəsində Aİ şirkətlərinin milli iqtisadiyyatla bağlı fikirləri əvvəlki iki sorğu ilə müqayisədə nəzərəçarpacaq dərəcədə yaxşılaşıb. Bu il, sorğu iştirakçılarının 51%-i hazırkı iqtisadi vəziyyəti qənaətbəxş hesab edir. Bu göstərici 2017-ci ildə 28%, 2016-cı ildə isə 17% olmuşdur. Aİ şirkətlərinin iqtisadi perspektivlə bağlı nikbinliyi bu il ən yüksək həddə çatıb; belə ki, sorğu iştirakçılarının 50%-i 2018-ci ildə ümumi iqtisadi perspektivlərin yaxşılaşacağını və yalnız 11%-i pisləşəcəyini gözləyir.

Şəkil 4: Azərbaycanda cari vəziyyətin qiymətləndirilməsi

Şəkil 5: Azərbaycanda perspektivlərin qiymətləndirilməsi




Əvvəlki sorğulara oxşar olaraq, Aİ şirkətlərinin öz sektorları və şirkətləri ilə bağlı nikbinliyi daha yüksəkdir. Məsələn, Aİ şirkətlərinin 46%-i fəaliyyət göstərdikləri sektorlardakı cari vəziyətin qənaətbəxş, 21%-i (2017-ci ildəki 9%-dən xeyli yüksək) isə yaxşı olduğuna inanır. Öz şirkətlərinin fəaliyyətinə gəldikdə isə Aİ şirkətlərinin 47%-i məmnun, 37%-i (2017-ci ildəki 23%-dən xeyli yüksək) isə inamlıdır.




Sorğuda iştirak etmiş Aİ şirkətlərinin 52%-i sektorlarının 2018-ci ildə daha yaxşı fəaliyyət göstərəcəyini gözləyir; bu isə 2017-ci ildəki 24% və 2016-cı ildəki 6%-dən xeyli yüksək göstəricidir. Bu müsbət artım sorğu iştirakçılarının bizneslərinin perspektivlərinə dair nikbinliyini də artırır. Aİ şirkətlərinin 55%-i şirkətlərinin daha yaxşı fəaliyyət göstərəcəyini gözləyir, yalnız 10%-i isə bu barədə nikbin deyil.




Bununla belə, hazırkı vəziyyətə və gələcək perspektivlərə dair bu ümidverici qiymətləndirmələr o demək deyil ki, ötən çətinliklər artıq geridə qalıb və ya bərpa daimidir. Bu ilki sorğunun nəticələrini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, Aİ şirkətləri gələcəyə dair artan nikbin baxışa sahib olsalar da, ölkənin biznes mühitinin yaxşılaşdırılması üçün bir sıra islahatların aparılmasının zəruri olduğu qətiyyətində qalırlar. Bu islahatlar istiqamətində ilk addımlar atılsa da, əldə olunan nailiyyətlərlə kifayətlənməmək və ölkənin iqtisadiyyatını şaxələndirmək və daha cəlbedici və dayanıqlı investisiya məkanı olmaq üçün vacib olan islahatların həyata keçirilməsini təmin etmək zəruriyyəti bu ilki sorğunun əsas ismarıclarındandır.

Bu ismarıcı daha da dəstəkləmək üçün qeyd etmək lazımdır ki, ötən illərlə müqayisədə Aİ şirkətlərində müşahidə olunan nəzərəçarpacaq dərəcədə nikbinliyin səbəblərindən biri onunla bağlıdır ki, ilk sorğuların keçirilməsi - vaxt etibarilə iqtisadi təlatümün tam ortasına təsadüf etmişdi. Bu ərəfədə neft qiymətlərinin kəskin şəkildə enməsi və milli valyutanın iki dəfə

devalvasiyaya uğraması, inflyasiya səviyyəsinin artması və maliyyə sektorunun zərər çəkməsi ilə nəticələnmişdir. İki il keçdikdən və artıq şirkətlər qeyri-müəyyənliklərin öhdəsindən gəlməyə başladıqdan və dəyişən tənzimləmələrə uyğunlaşdıqdan sonra daha çox şirkət bu dövri stimulun ölkədəki inkişafa təkan verəcəyinə inanır. Bu səbəbdən, hökumət hərtərəfli və geniş əsaslı siyasi tədbirlər vasitəsilə iqtisadi canlanmanı dayanıqlı etmək üçün bu imkandan yararlanmalıdır.

# Sektorlar üzrə Aİ şirkətlərinin fikirləri

Maraqlıdır ki, bu il Aİ şirkətlərində iqtisadi artımla bağlı ümidverici nikbinlik əlamətləri onların cari vəziyyətə, eləcə də sektorlar üzrə qısamüddətli perspektivlərə dair fikirlərində əks olunub. Bu, 2017-ci il ilə müqayisədə böyük irəliləyişdir. Belə ki, 2017-ci ildə demək olar ki, heç bir sektor fəaliyyət göstərdiyi sənaye sahəsi üzrə cari vəziyyətin yaxşı olduğunu, yaxud müsbət perspektivin mövcudluğunu düşünmürdü. Bununla belə, maliyyə sektoru bu baxımdan bu il də geridə qalır və Aİ şirkətlərinin bu sektor barədə fikirləri nikbin görünmür.

Doğrudan da, sorğu nəticələrinə əsasən, Maliyyə və Sığorta Fəaliyyətləri sahəsi 2018-ci ildə Aİ şirkətlərinın ən az etimad göstərdiyi sektordur; belə ki, bu sektorda fəaliyyət göstərən 8 Aİ şirkətindən 6-sı bu sahəni zəif kimi qiymətləndirmişdir və bu fikir sektor barədə ötən ilki sorğuda qeyd edilmiş fikirlərə oxşardır (2017-ci ildə bu sektorda fəaliyyət göstərən 9 Aİ şirkətindən 6-sı bu sahəni zəif kimi qiymətləndirmişdir).

Aİ şirkətlərinin fikirlərinə görə, nisbətən zəif fəaliyyət nümayiş etdirən Maliyyə sektorundan sonra İKT sektoru gəlir (7 şirkətdən 3-ü bu sahənin fəaliyyətini zəif hesab edir); burada ötən ilki sorğu ilə müqayisədə böyük fərq müşahidə olunur. Belə ki, 2017-ci ildəki sorğuda İKT sahəsində fəaliyyət göstərən 9 şirkətdən 6-sı vəziyyətin qənaətbəxş olduğunu qeyd edib. Müsahibələr və bağlı qrup müzakirələrinə əsasən, beynəlxalq şirkətlər, xüsusilə yüksək ixtisaslaşmış texnologiya sektorunda daha yaxşı maaş və yeni imkanlar təklif edə biləcəyindən ölkədən "beyin axını" baş verə bilər. Bu, isə qabaqlayıcı tədbirlər görülmədiyi təqdirdə, Azərbaycanı bu sahə üzrə inkişafdan geri qalmaq təhlükəsi ilə qarşı-qarşıya qoya bilər.

Digər tərəfdən, 2017-ci illə müqayisədə Aİ şirkətlərinin biznesə dair nikbinliyi Peşəkar, Elmi və Texniki Fəaliyyətlər sahəsi və Tikinti sektoru üzrə nəzərəçarpacaq dərəcədə yaxşılaşıb. Bu il tikinti layihələrinin canlanması və infrastruktur xərclərinin artması fonunda, sorğuda iştirak edən 10 tikinti şirkətindən 6-sı vəziyyəti qənaətbəxş və/yaxud güclü qiymətləndirib. Qeyd olunmalıdır ki, ötən il 13 Aİ şirkətindən 9-u bu sektoru zəif kimi qiymətləndirmişdi. Oxşar olaraq, Peşəkar, Elmi və Texniki Fəaliyyətlər sahəsində fəaliyyət göstərən 22 Aİ şirkətindən 14-ü bu il sektorları barədə inamlıdır (2017-ci ildə 13 şirkətdən 6-sı öz sektorlarını zəif qiymətləndirmişdi).

Şəkil 6: Sektorlar üzrə cari vəziyyətin qiymətləndirilməsi



Şəkil 6.1: Sektorlar üzrə perspektivlərin qiymətləndirilməsi




Sorğuda iştirak edən Aİ şirkətləri bu ilki qısamüddətli perspektiv barədə daha nikbindirlər. Uzunmüddətli çətinliklərə baxmayaraq, İKT (57%) və Peşəkar, Elmi və Texniki Fəaliyyətlər sahəsini (45%) təmsil edən şirkətlərin əksəriyyəti 2018-ci il üzrə perspektivlərindən əmindirlər. Maliyyə və Sığorta Fəaliyyətləri sahəsini və Tikinti sektorunu təmsil edən Aİ şirkətləri ötən illə müqayisədə qısamüddətli gələcək perspektivlərini daha müsbət qiymətləndirirlər: Maliyyə və Sığorta sahəsi üzrə "stabil" cavabların faiz nisbəti (2017-ci ildəki 22%-dən) 38%-ə və Tikinti sahəsi üzrə isə (2017-ci ildəki 38%-dən) 60%-ə yüksəlib.

Aİ şirkətlərinin gözləntilərinin yaxşılaşması əksər beynəlxalq qurumların 2018-ci il üçün olan makroiqtisadi proqnozlarını əks etdirir və hökumətin xüsusilə qeyri-neft sektoru və infrastruktur üzrə xərclərini artırmasından, eləcə də özəl sektorun fəaliyyətini gücləndirəcəyi gözlənilən valyuta məzənnəsinin stabilliyinin artmasından qaynaqlanır.

Bu ilin nəticələrinə əsasən, Aİ şirkətlərində müşahidə olunan ümumi nikbinlik, orta səviyyədə olsa da, öz şirkətlərinin fəaliyyətinə etimadın artması ilə nəticələnir. Beləliklə, təəccübləndirici deyil ki, sorğuda iştirak edən şirkətlərin 48%-i gəlirlərinin artacağını gözləyir. Bu göstərici 2017-ci ildə 34% idi. Qeyd etmək lazımdır ki, bir ildən sonra daha çox şirkət kapital xərclərini artırmağı (36%) planlaşdırır. Bu ilki sorğuda ən yaxşı təmsil olunan sektorlardan olan İKT və Nəqliyyat sahələri gəlirlərinin və kapital xərclərinin artacağına dair ən inamlı sektorlardır; belə ki, İKT şirkətlərinin 57%-i və Nəqliyyat şirkətlərinin 55%-i 2018-ci ildə gəlirlərinin və kapital xərclərinin artacağını gözləyir.

Oxşar olaraq, daha çox Aİ şirkəti bu il işçi heyətini olduğu kimi saxlamağı, yaxud işçilərin sayını artırmağı planlaşdırır və yalnız şirkətlərin 11%-i işçi heyətinin azalacağını gözləyir. Bu, 2017-ci ildəki 21% və 2016-cı ildəki 45% göstəricidən xeyli aşağıdır. Nəticədə, daha çox Aİ şirkəti xərclərinin 2018-ci ildə artacağını proqnozlaşdırır.

Sorğu nəticələri, həmçinin milli iqtisadiyyat ilə şirkətlərin biznes göstəricilərinin qiymətləndirilməsi arasında sıx əlaqənin olduğunu nümayiş etdirir. 2018-ci ildə milli iqtisadiyyatın pisləşəcəyini gözləyən Aİ şirkətlərinin 53%-i öz gəlirlərinin də azalacağını proqnozlaşdırır. Və əksinə: 2018-ci il üzrə iqtisadi perspektivin ümidverici olduğuna inanan sorğu iştirakçılarının 63%-i gəlirlərinin də artacağını

Şəkil 7: Əsas fəaliyyət göstəriciləri



gözləyir. Nisbətən zəif olsa da, eyni prinsip şirkətlərin bu ilki kapital xərclərinə və işəgötürmə planlarına da aiddir.

İxrac perspektivləri təbii ki, Azərbaycandakı Aİ şirkətlərinin nə dərəcədə ixrac yönümlü olmasından çox asılıdır. Ötən illərdə olduğu kimi, sorğuda iştirak edən Aİ şirkətlərinin yarıdan çoxu ixracla məşğul olmadığını bildirir. Bununla belə, ixrac artımının ötən ilin canlanmasından sonra nisbətən yaxşılaşdığı bir məqamda ixracla məşğul olanların 17%-i (2016-cı ildə bu göstərici 5% idi) bu il ixracın artacağını gözləyir.

İdxal perspektivlərinə gəldikdə isə Aİ şirkətlərinin idxalla bağlı gözləntiləri məhsullarında idxalın səviyyəsinin artması ilə proporsional surətdə artır. Sorğuda iştirak edən və məhsullarının yarıdan çoxunu idxal edən (50%-100%) Aİ şirkətlərinin 60%-i bu il daha çox artım olacağını bildirir. İdxaldan daha az (<50%) asılı olanların əksəriyyəti (61%) 2018-ci ildə idxalın sabit qalacağını gözləyir.

Şəkil 7.1: Əsas fəaliyyət göstəriciləri






# Fəsil 3

# Yerli biznes mühitinin Əsas göstəriciləri: fəaliyyət və çətinliklər

Azərbaycan 2015-ci ildə neft qiymətlərinin kəskin aşağı düşməsindən etibarən, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətindəki islahatları sürətləndirib və ölkədə biznes fəaliyyətinin sadələşdirilməsində müəyyən irəliləyiş əldə olunub. Bununla belə, ölkənin investisiya məkanı kimi rəqabətədavamlılığını və cəlbediciliyini artırmaq üçün zəruri olan struktur islahatlarının təsir göstərməsi üçün uzunmüddətli səylər davam etdirilməlidir ki, mövcud əngəllər və sistematik çətinliklər aradan qaldırılsın.

Aİ Biznes Mühiti Sorğusunun əsas məqsədlərindən biri islahatlar yolunda indiyədək əldə edilmiş irəliləyişləri və əlavə təkmilləşdirmə tədbirlərinin həcmini müəyyənləşdirmək məqsədilə Azərbaycanda biznes və investisiya mühiti ilə bağlı Aİ şirkətlərinin fikirlərini öyrənməkdir. Bu məqsədlə, sorğu Aİ şirkətlərinin biznes mühitinin üç əsas aspekti üzrə təsnifləşdirilmiş 25 yerli biznes faktoruna dair fikirlərini işıqlandırmağı hədəfləyir:

**Əmək bazarındakı şərait**

**Aktiv biznes mühiti**

**İqtisadi siyasət və institutlar**



# Aİ şirkətlərinin biznes mühiti göstəricilərinə dair fikirləri

Bu il, 2016-cı ildə hesabatın ilk nəşrindən etibarən birinci dəfədir ki, əmək bazarındakı şəraitin ümumi reytinqi orta göstəricidən bir az yüksəkdir. Sorğunun üç aspekti (əmək bazarı, biznes mühiti və iqtisadi siyasət) üzrə fərdi biznes göstəricilərinə daha diqqətlə nəzər yetirdikdə aydın olur ki, Aİ şirkətləri bu il demək olar ki, bütün faktorlar üzrə müsbət inkişafın olduğunu bildirib. Bununla belə, ixtisaslı kadrların mövcudluğu və gömrük qaydaları biznes mühitinin yeganə iki yerli göstəricisidir ki, 2017-ci illə müqayisədə pisləşib.

Yerli biznes mühiti göstəricilərinin hər birinin yaxşılaşmasına dair Aİ şirkətlərinin fikirləri arzuolunan olsa da, qeyd edilməlidir ki, göstəricilərin çoxu aşağı səviyyədən başlayıb və əksər hallarda qənaətbəxş səviyyədən aşağı qiymətləndirilir.

Həmçinin qeyd etmək lazımdır ki, ötən ilki sorğuda gömrük qaydaları üzrə əldə olunan müsbət göstəricilərin təsiri azalmaq üzrədir. Bu geriləmə aydın şəkildə nümayiş etdirir ki, islahatlara başlamaqla (ötən il gömrüklə bağlı islahatlara başlanılmışdır) kifayətlənməmək, islahatları dayanıqlı etmək və reallıqda uzunmüddətli təsirin olması üçün daha da genişləndirmək önəmlidir.

Şəkil 8: Aİ şirkətlərinin fikrincə biznes mühiti göstəricilərində dəyişiklik, 2017-2018



# Əmək bazarındakı şərait

İnvestisiya qoyuluşuna dair qərara təsir göstərən faktorlardan biri də ölkənin əmək bazarının potensialıdır. İxtisaslı işçi qüvvəsinin çatışmazlığı Avropa şirkətləri ilə müzakirələrdə vurğulandığı kimi, investisiya qoyuluşuna böyük əngəl törədə bilər. Bu il Aİ şirkətlərinin işçi qüvvəsinin sayını nisbətən artırma planları fonunda işçi qüvvəsinin peşəkarlığının artırılması hər zaman olduğundan daha önəmlidir.

Əmək bazarı göstəricilərindən işçilərin ixtisas və bacarıqları və məhsuldarlığı, o cümlədən əməyin dəyəri və immiqrasiya siyasətləri bu il ortalama göstəricidən bir az daha yaxşı qiymətləndirilib. Təhsil və peşə təliminin keyfiyyətinə dair fikirlərdə 2017-ci illə müqayisədə müəyyən müsbət dəyişiklik müşahidə olunsa da, onlar aşağı səviyyədən başlayır və bu səbəbdən, ümumilikdə Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətləri tərəfindən hələ də aşağı qiymətləndirilirlər.

# İxtisaslı kadrların çatışmazlığı ilə bağlı çətinliklər artır

İxtisaslı kadrların mövcudluğu 2018-ci ildə nəzərəçarpan mənfi dəyişikliyin müşahidə olunduğu ikinci biznes göstəricisidir. Ümumilikdə, Aİ şirkətlərinin 37%-i üzləşdiyi çətinliklərdən birinin ixtisaslı işçi qüvvəsinin çatışmazlığı olduğunu bildirir. Ötən ildə olduğu kimi, bazarda ixtisaslı kadr çatışmazlığından ən çox narazı olan Aİ şirkətləri Peşəkar, Elmi və Texniki Fəaliyyətlər sahəsini təmsil edir (22 şirkətdən 11-i), ən az narazı şirkətlər isə (18 şirkətdən yalnız 2-si) Neft və Qaz sektorunda fəaliyyət göstərir.

Şəkil 9: Əmək bazarındakı göstəricilərin qiymətləndirilməsi






**Turizm sektorundan Baş İcraçı Direktor**

*Xidmət və turizm sektorlarında xüsusilə qeyri-texniki bacarıqlar çatışmır. Turizm menecmenti məktəblərinin və bu sahədə tədrisin aparılması ilə bağlı olan PTT proqramlarının bu sektorlarda çalışan işçilərin praktiki bacarıqlarını artırmaq və kadr çatışmazlığını aradan qaldırmaq məqsədilə akademik kurikulumdan əlavə, tələbələrə real iş təcrübəsi təklif etməsi yaxşı olardı.*

Bununla belə, çarpaz təhlildən aydın olur ki, ixtisaslı işçi qüvvəsinin çatışmazlığı hələ ki, Aİ şirkətlərinin investisiya qərarlarına, işəgötürmə planlarına, yaxud öz şirkətlərinə dair qısamüddətli perspektivlərinə mənfi təsir göstərmir. Bu, qismən onunla izah oluna bilər ki, region daxilindəki alternativ investisiya məkanlarında da mühüm bacarıqlara malik olan kadrların mövcudluğu ilə bağlı çətinlik artır.[10 11]

Peşə təlimi və akademik təhsil proqramları əksər hallarda Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin ehtiyaclarına uyğun gəlmir. Peşə təhsilinin (2017-ci ildəki 6% göstərici ilə müqayisədə bu il Aİ şirkətlərinin 24%-i peşə təhsili və təliminin qənaətbəxş olduğunu düşünür) və ali təhsilin (2017-ci ildəki 15% göstərici ilə müqayisədə bu il Aİ şirkətlərinin 29%-i ali təhsilin keyfiyyətinin qənaətbəxş olduğunu düşünür) keyfiyyətinə dair Aİ şirkətlərinin fikirlərinin müsbət istiqamətdə dəyişməsinə baxmayaraq, bu sahədə hələ də çox iş görülməlidir; belə ki, sorğu iştirakçılarının 41% və 40%-i ölkədə müvafiq olaraq peşə təliminin və akademik təhsilin keyfiyyətindən narazıdırlar. Yeganə müsbət istisna İKT sektorunda müşahidə olunur; belə ki, bu sektoru təmsil edən 7 sorğu iştirakçısından 6-sı və 5-i müvafiq olaraq peşə təlimini və akademik təhsili qənaətbəxş kimi qiymətləndirirlər.

**İxtisaslı kadr çatışmazlığı və digər amillər**




**İxtisaslı kadr çatışmazlığı regionda əsas biznes riski kimi qeyd olunur**



Təhsil və ixtisaslaşma səviyyəsi əmək bazarının keyfiyyətini müəyyənləşdirən əsas faktorlardır. Hökumətin də etiraf etdiyi kimi, başlanılan islahatların real nəticələr verməsi uzunmüddətli prosesdir. Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, bu sahənin inkişafı üçün şirkətlərin ehtiyaclarını daha yaxşı qarşılayan yüksək keyfiyyətli və hərtərəfli təhsil sisteminin və peşə təlimi proqramlarının hazırlanmasına özəl sektorun cəlb edilməsi mühüm əhəmiyyətə malikdir. Bu məqsədlə, Avropa şirkətləri PTT üzrə Yol Xəritəsinin uğurla həyata keçirilməsi istiqamətində dövlət və özəl sektor arasında dialoqu dəstəkləməyə hazır olduqlarını bildirirlər.

# Aİ şirkətləri işçilərin məhsuldarlığının və bacarıqlarının qiymətləndirməsində nikbinlik nümayiş etdirir

2017-ci ildə işçilərin məhsuldarlığı ən çox geriləyən faktor idi. İşçilərin bacarıqları da zəif qiymətləndirilmişdi. Bir il sonra isə inkişaf perspektivlərinin artması ilə əlaqədar olaraq, işçilərin daha məhsuldar olduğu qeyd edilir. Aİ şirkətlərinin 47% və 44%-i müvafiq olaraq işçilərinin bacarıqları və məhsuldarlığından razıdır. Maraqlıdır ki, bütün digər əmək bazarı göstəriciləri ilə bağlı narazılıqlarını ifadə etdikləri halda, bu il sorğuda iştirak edən Maliyyə və Sığorta şirkətlərinin əksəriyyəti işçilərinin məhsuldarlığı (63%) barədə daha müsbət fikirdədirlər.

Ötən ildən fərqli olaraq, bu il Aİ şirkətləri əməyin dəyəri baxımından yaxşılaşmanın olduğunu bildiriblər. Çox güman ki, bu, 2015-ci ildə yerli valyutanın artan devalvasiyasının gecikmiş təsirlərini əks etdirir. Bununla belə, fərqli sektorlara nəzər yetirdikdə görünür ki, yalnız neft və qaz şirkətləri əməyin dəyərini qənaətbəxş (56%) hesab edir, bütün digər sektorlar isə bu göstəricini orta səviyyədə qiymətləndirir. Qeyd etmək lazımdır ki, hələ də orta səviyyədə qiymətləndirilməsinə baxmayaraq, bu il daha çox şirkət Əmək Məcəlləsi qanununun uyğunluğundan razıdır.

İmmiqrasiya siyasətlərinin uyğunluğu 2018-ci ildə əmək bazarı göstəriciləri arasında yaxşılaşmanın müşahidə olunduğu ikinci əsas sahədir. Bu göstərici üç ildə ilk dəfədir ki, ortalama səviyyədən bir az yüksək qiymətləndirilir. Bu göstəricini qənaətbəxş hesab edən Aİ şirkətlərinin payı 2017-ci ildə 22%-dən 2018-ci ildə 37%-ə qalxıb.

2017-ci ildə immiqrasiya sistemi və iş icazələrinin verilməsi qaydalarında əsaslı dəyişiklik baş vermədi. Ötən ilin əsas islahatı olan ASAN e-viza sisteminin tətbiqi 2017-ci ilin avqust ayında təcili vizaların verilməsi ilə öz xidmət sahəsini genişləndirdi. Əsas dəyişikliklərdən birinə əsasən, indi Azərbaycana işləmək üçün gələn bütün xarici vətəndaşlar-dan ölkəyə daxil olmamışdan öncə iş/əmək vizasına müraciət etmələri tələb olunur. Bir sıra Aİ şirkətlərinin fikrincə, bu, yüksək ixtisaslı xarici mütəxəssislərin işə götürülməsində sənədləşmə işini və bürokratiyanı artırır və bu sahədə daha sadə, çevik və şəffaf prosedurların tətbiqinə ehtiyac var.

Şəkil 9.1: Əmək bazarındakı göstəricilərin qiymətləndirilməsi




# Aktiv biznes mühiti

Ölkənin ümumi fəaliyyəti və rəqabətədavamlılığı əsasən inkişaf etmiş nəqliyyat şəbəkəsi, eləcə də geniş rəqəmsallaşma və innovasiyanı özündə ehtiva edən işlək fiziki infrastruktura əsaslanır. Bu səbəbdən hökumətin daha geniş sosial-iqtisadi hədəfləri nəzərdə saxlamaqla yanaşı, aktiv biznes mühitini müəyyənləşdirən faktorlara ciddi diqqət yetirməsi mühüm əhəmiyyətə malikdir.

# İnkişafa doğru: infrastrukturun dayanıqlı şəkildə müasirləşdirilməsi üçün dövlət və özəl sektorun əməkdaşlığı zəruridir

Ötən iki fiskal il ərzində büdcəni aşağı neft qiymətlərinin yeni reallığına uyğunlaşdırmaq məqsədilə kapital investisiyaları əhəmiyyətli dərəcədə azaldılmışdı. Buna baxmayaraq, bu ilki sorğuda Aİ şirkətləri artıq infrastrukturda orta səviyyəli yaxşılaşmanın olduğunu bildirir; belə ki, sorğu iştirakçılarının 37%-i (2017-ci ildəki 28%-lə müqayisədə) bu göstəricini qənaətbəxş qiymətləndirir. Əmtəə qiymətlərinin artımından faydalanaraq, hökumət bu il, xüsusən nəqliyyat infrastrukturu və sosial mənzillər üzrə dövlət xərclərini artırmağı planlaşdırır.

Texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə investisiya üçün əlverişli biznes mühitinin yaradılmasının əsasında səmərəli rəqəmsal infrastruktur, tədqiqat və inkişaf üçün əlverişli şərait və yeni texnologiyaların tətbiqi dayanır. Bu səbəbdən, bu ilki sorğuda iştirak edən şirkətlərə aktiv biznes mühitinin göstəricisi kimi yeni texnologiyadan istifadə imkanını qiymətləndirmək təklif olundu. Ortalama göstəricidən yüksək olsa da, yeni texnologiyadan istifadə imkanından məmnun olan şirkətlərin payı yalnız 33% təşkil edir. Tədqiqat və inkişaf üçün mövcud şəraitə gəldikdə isə Aİ şirkətlərinin 40%-i hələ də bu göstəricidən qeyri-məmnunluğunu (2017-ci ildəki qeyri-məmnunluğunu ifadə edən 47% ilə müqayisədə cüzi yaxşılaşma) ifadə edib.

Tarixən, dövlət sektoru ölkədə infrastruktur investisiyalarının böyük hissəsini öz üzərinə götürüb və Aİ şirkətlərinə əsasən, bu sahədə da dəyişiklik olmalıdır. İnfrastruktur investisiyalarındakı çatışmazlıqları aradan qaldırmaq üçün hökumət daha aydın siyasət və cəlbedici investisiya imkanları vasitəsilə özəl sektordan və xarici investorlardan daha böyük maliyyə səfərbər etməlidir.

Şəkil 10: Aktiv biznes mühiti göstəricilərinin qiymətləndirilməsi




# Yerli təchizatçılar beynəlxalq şirkətlərlə müqayisədə rəqabət üstünlüyünə malik deyil

Aİ şirkətlərinin yerli təchizatçılar barədə fikirlərini daha dəqiq öyrənmək üçün bu ilki sorğuya yeni sual əlavə olundu. Bu məsələ 2016-cı ildə ilk sorğunun keçirilməsindən etibarən Aİ şirkətləri tərəfindən dəfələrlə qaldırılıb. Yerli təchizatçıların keyfiyyəti ilə bağlı orta səviyyədə yaxşılaşma qeydə alınsa da, sorğu iştirakçılarının 40%-i (2017-ci ildə 37%) bu göstəricinin qeyri-qənaətbəxş olduğunu düşünür.




Bu ilki sorğuda bu məsələni daha dərindən təhlil edərkən aşkarlandı ki, bu qeyri-məmnunluğun əsas səbəbləri etibarlı məhsulların yerli istehsalının olmamasıdır (22%). Digər səbəblər arasında aşağı keyfiyyət standartları (19%) və müvafiq bacarıqların çatışmazlığı (16%) göstərilir. Maraqlıdır ki, Peşəkar, Elmi və Texniki Fəaliyyətlər sektorunu təmsil edən şirkətlərdən (22 şirkətdən 11-i) sonra yerli təchizatçıların keyfiyyətindən ən çox narazı olan şirkətlər Neft və Qaz sektorunda (18 şirkətdən 8-i) fəaliyyət göstərir.

Şəkil 10.1: Aktiv biznes mühiti göstəricilərinin qiymətləndirilməsi




**Neft və Qaz sektorundan Baş Menecer**

*Yerli təchizatçıların rəqabət üstünlüyü beynəlxalq təchizatçılarla müqayisədə nisbətən ucuz qiymətlər təklif etməsidir. Bununla belə, əksər hallarda onlar Avropa şirkətlərinin keyfiyyət və uyğunluq standartlarına cavab vermir.*

## Maliyyə əldə etmə imkanında çətinliklər şirkətlərin ödəmə intizamına mənfi təsir göstərməkdə davam edir

Aİ şirkətləri ötən il ərzində ödəmə intizamı və maliyyə əldə etmə imkanı baxımından orta səviyyədə müsbət dəyişikliyin baş verdiyini bildirir. Bu, ümidverici olsa da, qeyd olunmalıdır ki, 2018-ci ildə Aİ şirkətlərinin 43% və 40%-i müvafiq olaraq ödəmə intizamı və maliyyə əldə etmə imkanından məmnun deyildir.

Sorğu nəticələri bir daha göstərir ki, ötən illərdə olduğu kimi, maliyyə əldə etmə imkanı ilə bağlı əngəllər şirkətlərin ödəmə intizamına mənfi təsir göstərir. Maliyyə əldə etmə imkanından inamlı olmayan şirkətlərin 69%-i həmçinin bu ilki ödəmə intizamından məmnun deyildir. Bu, qanun pozuntusuna yol verənlərə qarşı tənzimləyici tədbirlərin yetərli olmaması ilə birlikdə, ödəmələrin yubadılmasının əsas səbəblərindəndir.

# İqtisadi siyasət və institutlar

Aşağı səviyyədən başlayaraq, gömrük qaydaları istisna olmaqla, bu il iqtisadi çərçivənin bütün göstəriciləri üzrə müsbət dəyişikliklər müşahidə olunur. Ən böyük risklər dövlət satınalmalarının şəffaflığı, ictimai fondlara çıxış və korrupsiyadır. Siyasi sabitlik isə ardıcıl olaraq üçüncü ildir ki, şirkətlər üçün etibarlı dayaq rolunu oynayır.

## Siyasi sabitlik birbaşa xarici investisiyalar və iqtisadi artım üçün zəruri şərtdir

Bütün biznes göstəricilərindən siyasi və sosial sabitlik bu il ən yüksək qiymətləndirilən faktor olaraq qalır: Aİ şirkətlərinin 51%-i bu faktorları qənaətbəxş qiymətləndirir. Bu göstərici 2017-ci ildə 41% təşkil edib. Eləcə də, dövlət idarəçiliyindən məmnun qalan şirkətlərin nisbəti 2017-ci ildəki 16%-dən 2018-ci ildə 27%-ə qalxıb. Aİ şirkətlərinin rəyinə əsasən, siyasi sabitlik və səmərəli dövlət idarəçiliyi islahatlar gündəliyinin həyata keçirilməsi və beləliklə, xarici investisiya axınlarının təmin edilməsi üçün olduqca vacibdir.

Bundan əlavə, sorğu nəticələri göstərir ki, şirkətlərin siyasi sabitlik və iqtisadi siyasətin proqnozlaşdırılmasına dair fikirləri arasında sıx əlaqə mövcuddur. Belə ki, Aİ şirkətlərinin fikrincə, ölkə siyasi cəhətdən nə qədər sabitdirsə, iqtisadi siyasətləri proqnozlaşdırmaq bir o qədər rahatdır.

Ümumilikdə, sorğuda iştirak edən şirkətlərin 21%-i (2017-ci ildə 9%-i) iqtisadi siyasətin proqnozlaşdırılmasından məmnun olduğunu ifadə edib.

Şəkil 11: İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi



# Gömrük qurumlarının daha da müasirləşdirilməsinə əlavə təkan lazımdır

Bu il Aİ şirkətlərinin 47%-i gömrük qaydalarını qeyri-qənaətbəxş hesab edir. Bu, ötən ilin nəticələrindən (təəssüf ki) kəskin şəkildə fərqlənir. Belə ki, ötən il ən müsbət dəyişiklik gömrük qaydalarında qeydə alınmışdı. Gömrük rüsumlarına dair narahatlıqlar da artır. Ümumilikdə, sorğuda iştirak edən şirkətlərin 42%-i hazırkı gömrük rüsumlarından məmnun deyil və ticarət tariflərinin təhlil və differensiasiya edilməsini təklif edir. Aİ şirkətlərinin bu rəyi “2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatı” nəticələri ilə uyğunluq təşkil edir. Belə ki, hesabatda Azərbaycan ticarət tarifləri üzrə 2017-ci ildə tutduğu 89-cu yerdən geriləyərək 2018-ci ildə 94-cü yerdə qərarlaşıb. Məlumatları daha diqqətlə nəzərdən keçirdikdə, digər bir narahatlığın KOS müəssisələri perspektivindən olduğu ortaya çıxır: gömrük qaydaları və rüsumları iri şirkətlərdən çox kiçik şirkətlərin üzərinə daha böyük yük qoyur.

Bu səbəbdən, kəskinləşən qlobal iqtisadi rəqabət şirkətlərin gömrük ilə bağlı işlərə sərf etdiyi zamanın və xərcin azaldılması məqsədilə gömrük prosedurlarının sadələşdirilməsi üçün əlaqəli tarif siyasətlərinin qəbul edilməsini və yaxşı hazırlanmış və şəffaf tənzimləyici çərçivənin yaradılmasını zəruri edir.

Şəkil 11.1: İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




**Elektrik enerjisi və qaz təchizatı sektorundan Baş İcraçı Direktor**

*Gömrük tarifləri təshih edilməlidir və rüsumların differensiasiyası üçün ekspert rəyi alınmalıdır. Məhsullar ölkədə istehsal olunmadığı təqdirdə, onlara yüksək tariflərin qoyulması ticarət və iqtisadiyyata ziyan vura bilər.*

# 2018-ci ildə vergi sistemində real və əsaslı islahatlara doğru ümidverici yol

İnvestisiya barədə düşünərkən yalnız rəsmi vergi sistemi və vergi qaydaları deyil, həmçinin idarəetmə sisteminin necə işlədiyi nəzərə alınır. Azərbaycanın vergi qurumları, xüsusilə vergilərin icrası və toplanılması sahəsində uzun müddət ərzində özbaşına və sərt xüsusiyyətləri ilə qəbul olunublar. Bununla belə, bu il Aİ şirkətləri vergi siyasətini müsbət qiymətləndirib. Onlar nikbindirlər ki, rəhbərlikdə olan dəyişiklik daha real və genişmiqyaslı vergi islahatlarına yol açacaq. Ötən ildən etibarən az irəliləyişin olmasına baxmayaraq, fəaliyyət göstərdikləri sektordan və ölçüsündən asılı olmayaraq, sorğuda iştirak edən şirkətlərin 39%-i ümumi vergi yükündən məmnun deyil.

Vergilərin yeni rəhbərliyinin biznes icması və beynəlxalq qurumlarla birlikdə dəyişikliklərin edilməsinə hazır olması yüksək qiymətləndirilir. Avropa şirkətləri, həmçinin müvafiq maliyyə və vergi qurumlarından öz yanaşmalarında baş verə biləcək ziddiyyətlərdən və anlaşılmazlıqlardan yayınmaq üçün aralarındakı koordinasiyanı və məlumat axınını yaxşılaşdıracağını gözləyir.

Şəkil 11.2: İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




**Müsahibələr və bağlı qrup müzakirələri**

*Rəhbərlikdəki son dəyişikliklərin vergi sisteminə daha böyük innovasiyalar və şəffaflıq gətirəcəyi gözlənilir. Şirkətlər vergi qanunvericiliyinin aydın təfsirinə və vergi toplama üsullarının liberallaşdırılmasına ehtiyacın olduğunu bildirirlər.*

# Hüquq sistemi çətin vəziyyətdən çıxış yolu tapmalıdır

Beynəlxalq təcrübəyə əsasən, hüquqi dəqiqliyin azlığı və ziddiyyətli məhkəmə sistemi, o cümlədən korrupsiyanın mövcudluğu ölkəyə xarici investisiyanın qoyulmasına əhəmiyyətli dərəcədə maneə törədir. Bunu nəzərə alaraq, Aİ şirkətlərinin fikrincə, hüquqi çərçivə hələ də həll olunmalı ən önəmli məsələlərdəndir. Sorğuda iştirak edən şirkətlərin 41%-i ölkədə qanunun aliliyindən məmnun olmadıqlarını bildirib.

Dövlət satınalmalarında şəffaflıqla bağlı müəyyən irəliləyişin olduğu qeyd olunsa da, şirkətlərin 47%-i bu göstəricidən məmnun deyil və tender prosedurları və meyarlarının yaxşılaşdırılması üçün əlavə tədbirlərin həyata keçirilməsinə ehtiyacın olduğunu bildirir. Bundan əlavə, sorğunun nəticələri göstərir ki, dövlət satınalmalarında şəffaflığın çatışmazlığı iri şirkətlərə nisbətən kiçik şirkətlərə daha çox mənfi təsir göstərir. Hüquqi qeyri-dəqiqlik isə bütün şirkətlərə ciddi təhlükə yaradır. Bu səbəbdən, ədalətli hüquqi çərçivənin yaradılmaması və onun hesabatlılığının və şəffaflığının təmin edilməməsi hökumətin iqtisadiyyatı şaxələndirmə və inkişaf planlarını təhlükə altında qoya bilər.

Şəkil 11.3: İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




**Neft və qaz sektorundan Baş İcraçı Direktor**

*Şirkət çətinliklərlə və mübahisələrlə qarşılaşdıqda Hasilatın Pay Bölgüsü Sazişləri olduqca güclü vasitələrdir. Neft və qaz sektorunda fəaliyyət göstərən şirkətlər üçün yaradılan hüquqi çərçivə digər sektorlarla müqayisədə əhəmiyyətli dərəcədə daha əlverişlidir.*

**Peşəkar fəaliyyətlər sektorundan İdarəedici Partnyor**

*Qanunun aliliyi, xüsusilə yerli məhkəmələrin şəffaflığı və peşəkarlığı sahəsində vəziyyətin yaxşılaşdırılmasına ehtiyac var.*

Aİ şirkətlərinin rəyinə əsasən, hüquqi qeyri-dəqiqlik korrupsiyadan qaynaqlana bilər. Korrupsiya, eləcə də ictimai fondlara çıxış Aİ şirkətləri üçün əlavə xərclərə səbəb olur. Hər iki göstəricidə 2017-ci illə müqayisədə az irəliləyiş qeydə alınsa da, iştirakçıların 47%-i bu il hər iki faktoru qeyri-qənaətbəxş hesab edir.

Aİ şirkətlərinin cari iqtisadi vəziyyət və biznes göstəriciləri ilə bağlı fikirləri bu il şirkətlərinə daha çox mənfi təsir göstərən əlverişsiz şərtlərin reytinqində də öz əksini tapıb. 2017-ci ildə sabitləşən valyuta məzənnəsi fonunda bu il şirkətlər xarici valyuta əldə etmə imkanı və valyuta məzənnəsinin dəyişkənliyi barədə daha az narahatdırlar. Qeyd etmək lazımdır ki, bu ilki sorğu iştirakçılarının 44%-i gömrük nəzarətinin şirkətlərinə böyük təsir göstərdiyini bildirib. Bu, 2017-ci ildəki göstəricidən (18%) əhəmiyyətli dərəcədə yüksəkdir. Təəccüblü deyil ki, bazarın qeyri-müəyyən istiqamətdə inkişafı, bürokratiya və inflyasiyadan sonra ixtisaslı kadrların çatışmazlığı Avropa şirkətlərinə ən mənfi təsir göstərən faktor kimi qeyd edilib.

Şəkil 12: Aİ şirkətlərinə təsir edən iqtisadi faktorların qiymətləndirilməsi, 2017-2018



# Fəsil 4

# Azərbaycan İnvestisiya Məkanı kimi

İqtisadiyyatın şaxələndirilməsi üzrə dövlət siyasəti ilə yanaşı, ölkəyə xarici investisiyanın cəlb olunması hökumətin gələcək illərdə ən əsas hədəflərindən biridir. Xarici investisiyaların ənənəvi olaraq aparıcı rol oynayan neft və qaz sənayesindən qeyri-neft sektoruna istiqamətləndirilməsi məqsədilə Azərbaycan hal-hazırda yeni ticarət marşrutları və nəqliyyat dəhlizləri, eləcə də irimiqyaslı infrastruktur layihələri üzərində işləyir. Bununla əlaqədar olaraq, Ələt azad ticarət zonasının yaradılmasının və beynəlxalq dəniz ticarət limanının tikintisinin, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsinin ölkəyə birbaşa xarici investisiyanın cəlb edilməsinə əlavə təkan verəcəyi gözlənilir.

**Nəqliyyat sektorundan Baş İcraçı Direktor**

*Azərbaycan tranzit ölkə olmağı hədəfləyir və bu, daha çox infrastruktur layihələrinə təkan verəcək. İnanırıq ki, əlverişli nəqliyyat marşrutları xarici investisiyaların cəlb edilməsi üçün önəmlidir.*

Azərbaycanın Mərkəzi Bankının məlumatına əsasən, 2017-ci ildə Azərbaycana ümumilikdə 5,7 milyard dollar dəyərində xarici investisiya qoyulub və bu investisiyaların 86%-i neft və qaz sektorunun payına düşüb. Son 10 il ərzində Aİ ölkələri Azərbaycan iqtisadiyyatına 21 milyard dollar investisiya qoyub və bu, ümumi investisiyanın 24%-ni təşkil edir. Bundan əlavə, Azərbaycanın ticarət dövriyyəsinin 35,5%-i Aİ ölkələrinin payına düşür. Hökumətin hazırkı hədəfi ölkəyə 15 milyard dollar investisiyanın cəlb edilməsi və Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılmasına və xarici şirkətlərin etimadının qazanılmasına yönəlmiş islahatların davam etdirilməsidir.

* Aİ ilə Azərbaycan arasındakı ticarət statistikası haqqında daha ətraflı məlumat üçün Əlavə C-yə baxın

# Azərbaycana yenidən investisiya qoyardınızmı?

Dünya Bankı Qrupunun 2018-ci il üzrə “Doing Business” hesabatında Azərbaycan səhmdarların hüquqlarının və onların mühüm korporativ qərarlarının verilməsində rolunun artırılması, sahiblik və nəzarət strukturlarının aydınlaşdırılması və korporativ şəffaflığın genişləndirilməsi vasitəsilə kiçik investorların maraqlarının qorunmasını gücləndirib. Bundan əlavə, Prezidentin 2018-ci il yanvar tarixli fərmanına uyğun olaraq, “Xarici investorların hüquqlarının qorunması haqqında” yeni Qanunun hazırlanması ilə xarici şirkətlər üçün əlverişli investisiya mühitinin yaradılması üzrə həyata keçirilən işlər davam edir.




Bu ilki inkişaf perspektivlərinə dair nikbinliyin aydın olduğu bir məqamda, investisiya qərarları baxımından daha çox Aİ şirkətinin Azərbaycana yenidən sərmayə yatıracağı məlum olur. Daha dəqiq desək, bu ilki sorğuda iştirak edən Aİ şirkətlərinin 66%-i Azərbaycana yenidən investisiya qoya biləcəklərini və yalnız 10%-i sərmayələrini yenidən nəzərdən keçirəcəyini bildirib.

Həmçinin, sorğu nəticələrinin təfərrüatlı təhlili göstərir ki, Aİ şirkətləri investisiya qərarlarını yenidən nəzərdən keçirərkən əlverişli biznes şəraiti əsas rol oynayır: biznes göstəricilərinə inam səviyyəsi nə qədər yüksək olsa, investisiyaları yenidən nəzərdən keçirmə istəyi bir o qədər az olar.

Sektorlar üzrə fərqləndirmə apardıqda, 2017-ci ildə olduğu kimi, Neft və Qaz sənayesində fəaliyyət göstərən şirkətlərin (Nəqliyyat sektorundan sonra) qeyri-neft sektorunu təmsil edən şirkətlərlə müqayisədə investisiya qərarlarında daha qəti olduğu aşkarlanır. Əslində bu, ölkədə neft və qaz fəaliyyətləri üçün daha əlverişli investisiya şərtlərinin və əhəmiyyətli vergi güzəştlərinin olmasını əks etdirir.

Təəccüblü deyildir ki, sorğuda iştirak edən Avropa şirkətlərinin inkişaf dinamikası onların ümumi nikbin perspektivlərinə uyğun olaraq dəyişir. Belə ki, bu il Aİ şirkətlərinin 53%-i növbəti bir-iki il ərzində ölkədəki biznes fəaliyyətlərini genişləndirməyi planlaşdırır. Bu, ötən ilki göstəricidən nəzərəçarpacaq dərəcədə (33%) yüksəkdir. Bundan əlavə, Azərbaycanı yenidən investisiya məkanı kimi seçəcəklərini bildirən şirkətlərin 63%-i həmçinin bizneslərini genişləndirmək niyyətindədir.




# Böyük həcmli və uzunmüddətli xarici investisiyalar daha əlverişli biznes mühiti tələb edir

Aİ şirkətlərinin investisiya məkanı kimi Azərbaycan barədə fikirlərinə dair təfərrüatlı məlumat əldə etmək məqsədilə bu ilki sorğuya yeni sual əlavə etdik. Sorğu iştirakçılarında şirkətlərini Azərbaycana sərmayə qoymağa / Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən amillər ilə bağlı sual təqdim olundu. Sorğunun nəticələrinə əsasən, Azərbaycana investisiya qoyuluşunu təşviq edən əsas faktor daxili bazara asan çıxışın olmasıdır (33%). Azərbaycanı Aİ şirkətləri üçün cəlbedici investisiya məkanı edən aspektlərdən biri olan strateji tərəfdaşlıqlar və müttəfiqliklər ölkənin ikinci ən önəmli üstünlüyü kimi qeyd olunur (28%). Texnologiyadan istifadə imkanları və ixrac bazarlarına çıxış, eləcə də vergi təşviqləri kimi digər göstəricilər sorğu iştirakçıları tərəfindən o qədər də cəlbedici hesab edilmir.

## İnvestisiya qoyuluşunu təşviq edən 5 əsas amil



İnkişaf etməkdə olan bir çox iqtisadiyyatların yolu ilə gedən Azərbaycan xüsusilə dövlət müəssisələrinin özəlləşdirilməsi və sənaye parklarının və xüsusi iqtisadi zonaların yaradılması vasitəsilə ölkəyə birbaşa xarici investisiyaları cəlb etməyə çalışır. Aİ şirkətlərinin rəyinə əsasən, xarici şirkətləri ölkəyə investisiya qoymağa həvəsləndirmək üçün özəlləşdirmə şərtləri (məs., mülkiyyət hüquqları, investisiya üçün ayrılan təsisatlar) daha əlverişli və cəlbedici olmalıdır. Eləcə də, sənaye zonalarına qoyulan investisiyalar sərt seçim meyarları ilə məhdudlaşdırılmamalıdır.

**Müsahibələr və bağlı qrup müzakirələri**

*Hökumət investorların regionda inkişaf etməkdə olan digər ölkələri deyil, məhz Azərbaycanı seçmələri üçün daha rəqabətədavamlı biznes mühiti yaratmalı və cəlbedici stimullar təklif etməlidir.*

Bundan əlavə, təcrübə göstərir ki, yalnız belə stimulların mövcudluğu kiyafət deyildir və vergi və gömrük sistemlərində hələ də mövcud olan çətinliklərin aradan qaldırılması, hüquq təsisatlarının şəffaflığının təmin edilməsi və bürokratik müdaxilələrin minimuma endirilməsi üçün əlavə struktur islahatlarının aparılması vacibdir. Aİ şirkətlərinin fikrincə, bütün bu tədbirlər, o cümlədən ixtisaslı kadrların mövcudluğu və yaxşı inkişaf etdirilmiş infrastruktur 2018-ci ildə xarici şirkətlərin investisiya etimadını yüksəldəcək və tədricən iqtisadi artım üçün yeni hərəkətverici qüvvə olacaq.





# Nəticə

Tədricən bərpa olan və sabitləşən iqtisadiyyatın fonunda Aİ şirkətləri bu il aydın şəkildə daha nikbin baxışa malikdirlər. Onlar ötən iki illə müqayisədə milli iqtisadiyyatı bu il daha müsbət qiymətləndirirlər. Bununla belə, bu qiymətləndirmə hələ də qənaətbəxş səviyyədən aşağıdır. Qeyd olunmalıdır ki, ölkənin maliyyə sektorunun sabitliyinin təmin edilməsi üçün görülən tədbirlərə baxmayaraq, struktur problemləri və çatışmazlıqlar hələ də qalmaqdadır. Digər tərəfdən, tikinti icazələrinin verilməsi prosedurlarının sadələşdirilməsi ilə yanaşı, infrastruktur xərcələrinin tədricən artması 2015-ci ildən etibarən təzyiq altında olan tikinti sektoruna yenidən etimad yaradır.

Bu ilki sorğunun nəticələrinə və seçilmiş Aİ şirkətləri ilə keçirilmiş müsahibələr və bağlı qrup müzakirələrinə əsasən, vergi və gömrük sistemində, eləcə də qanunun aliliyi və təhsil sektorunda yeni və davamlı islahatlara ehtiyac vardır. Aİ şirkətləri, ötən ilki sorğuda Azərbaycanda biznesin qurulması və genişləndirilməsində əsas əngəl kimi qeyd olunan vergi sisteminin bu yaxınlarda qurumun rəhbərliyinin dəyişdirilməsindən və Vergi Məcəlləsinə edilən düzəlişlərdən sonra xeyli yaxşılaşacağına dair nikbindirlər.

Gömrük sisteminə gəldikdə isə elektron gömrük bəyannaməsinin tətbiqindən sonra ötən ilki sorğuda müşahidə olunan nikbinlik bu il islahatların davam etdirilməməsi səbəbindən azalır. Aİ şirkətləri islahatların həyata keçirilməsinin sürətləndirilməsinin, gömrük idarəçiliyinin yaxşılaşdırılmasının, elektron sistemə keçidin sürətləndirilməsinin və gömrük rəsmilərinin təlim və peşəkar inkişafının artırılmasının önəmini vurğulayır. Gömrük rüsumlarının KOS müəssisələrinə həddindən artıq yük olmamasının təminatına da ehtiyac var, çünki KOS-lar ölkənin iqtisadiyyatının şaxələndirilməsi planlarının əsasını təşkil edir.

Hüquq sistemində islahatların aparılması, məhkəmə qərarlarının icrası prosesinin müasirləşdirilməsi və məhkəmə sistemində şəffaflığın təmin edilməsi ölkədə sahibkarlıq fəaliyyətinin inkişafını dəstəkləmək üçün həyata keçirilməli əsas tədbirlər hesab olunur. Aİ şirkətlərinin qeyd etməkdə davam etdiyi digər bir məsələ ixtisaslı kadrların çatışmazlığının ali təhsilə və peşə təliminə investisiya qoymaq və islahatlar aparmaqla həll edilməsinin və bu sahələrin şirkətlərin tələblərinə daha da uyğunlaşdırılmasının önəmidir. Bu istiqamətdə atılan ilk addımlar bu ilki sorğuda yüksək qiymətləndirilib; belə ki, ali və peşə təhsili sistemlərindən məmnunluq səviyyəsi artıb, lakin nəzərəçarpan nəticələrin əldə edilməsi üçün uzunmüddətli islahatların aparılması zəruridir.

Ümumilikdə, bu ilki sorğu aydın şəkildə göstərir ki, iqtisadiyyatın stabilləşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması üçün bir sıra önəmli addımların atılmasına baxmayaraq, hələ də görülməli olan işlər çoxdur. Sorğuda iştirak edən Aİ şirkətləri dövlət və özəl sektor arasındakı dialoqun inkişaf etdirilməsində və biznes mühitində hələ də mövcud olan çətinliklərin aradan qaldırılması üçün siyasəti formalaşdıranlarla fəaliyyətin dərinləşdirilməsində (ən əsası vergi, gömrük, hüquq və təhsil sistemlərində islahatların keçirilməsinə yardımın göstərilməsi və xüsusilə KOS müəssisələrinin inkişaf edə biləcəyi mühitin gücləndirilməsi vasitəsilə) Aİ dəstəyinə ehtiyac duyur.



# Əlavə A: Metodologiya

Ardıcıl olaraq üçüncü ildir ki, Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan), Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə Azərbaycanın Aİ Biznes Mühiti Sorğusunu həyata keçirdi. Sorğunun nəticələrinə əsaslanan bu hesabat Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin nöqteyi-nəzərinə əsaslanan cari iqtisadi vəziyyət və biznes mühitini təsvir edir.

Sorğu 3 bölməni əhatə edən 20 sualdan ibarətdir:

- Azərbaycanda iqtisadi vəziyyət və perspektivlər
- Azərbaycanda iqtisadi vəziyyətin və biznes mühitinin şirkətlərə və onların investisiya qərarlarına təsiri
- Şirkət haqqında suallar

Müvafiq zaman ərzində məlumatların müqayisəli şəkildə göstərilməsini təmin etmək məqsədilə əvvəlki biznes mühiti sorğularının strukturu dəyişdirilməmişdir. Bu il sorğuya üç yeni sual (bir sualda “branching/skip logic” xüsusiyyəti olmaqla) əlavə olunmuşdur. Yeni təqdim olunan suallarda əsas diqqət Aİ şirkətlərinin yerli təchizatçılarla əməkdaşlıq zamanı qarşılaşdıqları problemlərin müəyyənləşdirilməsinə, Aİ şirkətlərini Azərbaycana sərmayə qoymağa və ya Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən amillərin təhlil edilməsinə, eləcə də idxalın şirkət məhsullarındakı payının təyin olunmasına yönəldilmişdir.

Sorğu “QuestionPro” online sorğu platforması vasitəsilə 27 Aİ ölkəsini təmsil edən təxminən 400-ə yaxın Aİ şirkəti arasında keçirilmişdir. 9 fevral - 16 mart 2018-ci il tarixləri ərzində, 149 tam cavab əldə olunmuşdur. Eyni şəxslərdən / şirkətlərdən alınan cavabların çıxarılmasından və məlumatların yoxlanılmasından sonra, Aİ şirkətlərinin ölkədəki biznes mühiti ilə bağlı fikirlərini təhlil etmək məqsədilə təsviri və statistik baxımdan əhəmiyyətli 131 etibarlı və tam cavab seçilmişdir. Toplanılmış cavablar məxfilik qaydalarına ciddi riayət edilməklə nəzərdən keçirilmiş və anonim qaydada təhlil olunmuşdur.

Bundan başqa, müxtəlif sektorları və Aİ ölkələrini təmsil edən 17 Aİ şirkəti ilə üzbəüz müsahibələr aparılmışdır. Həmçinin, bağlı qrup görüşlərində iştirak edən seçilmiş Aİ şirkətlərindən olan nümayəndələrin fikirləri bu hesabatda əldə olunan məlumatların qiymətləndirilməsinə öz töhfəsini vermişdir. Onların müvafiq məsələlərə dair fikirləri və şərhləri hesabat boyunca anonim şəkildə təqdim olunmuşdur.

Əvvəlki illərdə olduğu kimi, sorğunun əsas nəticələrini izah etmək üçün hesabatda Dünya Bankı, Asiya İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq maliyyə qurumları ilə yanaşı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın Mərkəzi Bankı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin statistik məlumatlarından istifadə olunmuşdur. Bununla yanaşı, Aİ şirkətlərinin iqtisadi inkişaf və ölkənin biznes göstəriciləri haqqında olan fikirlərində özünü göstərən illik dəyişikliklərin dəqiq təhlilinin aparılması məqsədilə bu ilki (2018) sorğunun nəticələri əvvəlki illərdə (2016 və 2017) aparılan sorğularla müqayisə edilmişdir.

Ümumi orta dəyərlər və ya orta qiymətlər ədədi ortadan istifadə etməklə hesablanmışdır. Bundan əlavə, məlumatlar arasında əlaqəni müəyyənləşdirmək məqsədilə mümkün olan hallarda müvafiq göstəricilər arasında çarpaz təhlillər aparılmışdır.

# Əlavə B: Sorğunun təfərrüatlı nəticələri

## Sual 1. Azərbaycanda hazırkı vəziyyəti necə qiymətləndirirsiniz?




| Cavab seçimləri | Çox pis | Pis | Qənaətbəxş | Yaxşı | Çox yaxşı | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|
| Ölkə iqtisadiyyatı | 9 | 37 | 67 | 16 | 2 | 2,73 | 131 |
| Sizin sektorunuz | 7 | 36 | 60 | 23 | 5 | 2,87 | 131 |
| Sizin şirkətiniz | 5 | 16 | 61 | 41 | 8 | 3,24 | 131 |
| **Yekun** | | | | | | | **131** |

## Sual 2. Ötən il ilə müqayisədə 2018-ci il ərzində Azərbaycandakı imkanları necə dəyərləndirirsiniz?




| Cavab seçimləri | Çox pis | Pis | Qənaətbəxş | Yaxşı | Çox yaxşı | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|
| Ölkə iqtisadiyyatı | 2 | 13 | 51 | 60 | 5 | 3,40 | 131 |
| Sizin sektorunuz | 2 | 14 | 47 | 60 | 8 | 3,44 | 131 |
| Sizin şirkətiniz | 0 | 13 | 46 | 56 | 16 | 3,57 | 131 |
| **Yekun** | | | | | | | **131** |

## Sual 3. Ötən il ilə müqayisədə 2018-ci il ərzində şirkətinizin fəaliyyət göstəricilərini necə qiymətləndirirsiniz?




| Cavab seçimləri | Xeyli azalacaq | Nisbətən azalacaq | Sabit qalacaq | Nisbətən artacaq | Xeyli artacaq | Şamil edilmir | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|---|
| Gəlirlər | 3 | 20 | 35 | 49 | 14 | 10 | 3,42 | 131 |
| Kapital xərcləri | 4 | 14 | 51 | 39 | 8 | 15 | 3,28 | 131 |
| Xərclər | 3 | 22 | 46 | 44 | 9 | 7 | 3,27 | 131 |
| İşçilərin sayı | 3 | 12 | 61 | 41 | 5 | 9 | 3,27 | 131 |
| İxrac | 1 | 2 | 38 | 21 | 1 | 68 | 3,30 | 131 |
| İdxal | 2 | 6 | 37 | 35 | 8 | 43 | 3,47 | 131 |
| **Yekun** | | | | | | | | **131** |

## Sual 3.1 Şirkətinizin məhsullarının neçə faizi idxal olunur?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| <1 % | 14% | 12 |
| 1-9 % | 13% | 11 |
| 10-49 % | 15% | 13 |
| 50-89 % | 24% | 21 |
| 90-100 % | 35% | 31 |
| **Yekun** | **100%** | **88** |

## Sual 4. Şirkətiniz/sektorunuz üçün yerli biznes mühitinin aşağıdakı göstəricilərini necə dəyərləndirirsiniz?




| Cavab seçimləri | Olduqca qeyri-qənaətbəxş | Qeyri-qənaətbəxş | Orta | Qənaətbəxş | Olduqca qənaətbəxş | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|
| Siyasi və sosial sabitlik | 7 | 9 | 48 | 46 | 21 | 3,50 | 131 |
| İşçilərin ixtisas və bacarıqları | 3 | 22 | 44 | 49 | 13 | 3,36 | 131 |
| İşçilərin məhsuldarlığı | 2 | 15 | 56 | 51 | 7 | 3,35 | 131 |
| İnfrastruktur | 3 | 16 | 63 | 41 | 8 | 3,27 | 131 |
| Əməyin dəyəri | 4 | 21 | 57 | 42 | 7 | 3,21 | 131 |
| Yeni texnologiyadan istifadə imkanları | 7 | 22 | 59 | 35 | 8 | 3,11 | 131 |
| İmmiqrasiya siyasətinin uyğunluğu | 9 | 25 | 49 | 43 | 5 | 3,08 | 131 |
| Əmək Məcəlləsi qanununun uyğunluğu | 11 | 27 | 50 | 36 | 7 | 3,01 | 131 |
| İxtisaslı kadrların mövcudluğu | 6 | 42 | 43 | 31 | 9 | 2,96 | 131 |
| Dövlət idarəçiliyi | 13 | 29 | 54 | 28 | 7 | 2,90 | 131 |
| Azərbaycanda təhsilin keyfiyyəti | 10 | 43 | 40 | 30 | 8 | 2,87 | 131 |
| Yerli təchizatçıların keyfiyyəti və mövcudluğu | 7 | 45 | 49 | 27 | 3 | 2,80 | 131 |
| Tədqiqat və İnkişaf üçün mövcud şərait | 12 | 40 | 46 | 30 | 3 | 2,79 | 131 |
| Peşə təhsilinin keyfiyyəti | 12 | 42 | 46 | 25 | 6 | 2,78 | 131 |
| Ödəmə intizamı | 16 | 40 | 39 | 31 | 5 | 2,76 | 131 |
| Maliyyə əldə etmə imkanı | 13 | 39 | 53 | 19 | 7 | 2,76 | 131 |
| Vergi yükü | 16 | 35 | 53 | 23 | 4 | 2,73 | 131 |
| İqtisadi siyasətin proqnozlaşdırılması | 17 | 36 | 50 | 23 | 5 | 2,72 | 131 |
| Vergi siyasəti və vergi orqanları | 23 | 26 | 58 | 19 | 5 | 2,67 | 131 |
| Hüquqi dəqiqlik | 23 | 31 | 50 | 22 | 5 | 2,66 | 131 |
| Gömrük proseduru və qaydaları | 22 | 39 | 41 | 22 | 7 | 2,64 | 131 |
| Gömrük tarifləri | 21 | 34 | 53 | 17 | 6 | 2,64 | 131 |
| Korrupsiya ilə mübarizə tədbirləri | 24 | 37 | 44 | 20 | 6 | 2,60 | 131 |
| İctimai fondlara çıxış | 22 | 39 | 48 | 15 | 7 | 2,59 | 131 |
| Dövlət satınalmasının şəffaflığı | 26 | 36 | 45 | 20 | 4 | 2,54 | 131 |

## Sual 5. Şirkətinizi yerli təchizatçılarla əməkdaşlıq etməkdən çəkindirən əsas amillər nələrdir? [Uyğun gələn maksimum 3 variantı seçin]



| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Etibar etdiyimiz məhsulların yerli istehsalının olmaması | 22% | 66 |
| Yerli təchizatçıların keyfiyyət standartlarına cavab verməməsi | 19% | 57 |
| Yerli təchizatçıların müvafiq bacarıq və imkanlara malik olmaması | 16% | 50 |
| Yerli təchizatçıların qeyri-peşəkarlığı | 11% | 35 |
| Yerli təchizatçıların etibarsızlığı | 11% | 35 |
| Yerli təchizatçıların etik standartlara cavab verməməsi | 7% | 22 |
| Yerli təchizatçıların intellektual mülkiyyət hüquqlarına hörmət etməməsi | 6% | 18 |
| Yerli təchizatçıların ekoloji standartlara cavab verməməsi | 5% | 15 |
| Digər | 2% | 6 |
| **Yekun** | **100%** | **304** |

## Sual 6. Aşağıdakı amillərdən hansı şirkətinizə/sektorunuza daha çox təsir göstərir?




| **Cavab seçimləri** | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | **Cavab faizi** | **Cavabların sayı** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bazarın qeyri-müəyyən istiqamətdə inkişafı | 4 | 4 | 9 | 5 | 5 | 7 | 22 | 19 | 19 | 15 | 22 | 100% | 131 |
| | | 25,95% | | | | | | | 74,05% | | | | |
| Bürokratiya | 4 | 10 | 7 | 8 | 11 | 15 | 13 | 13 | 15 | 12 | 23 | 100% | 131 |
| | | 41,98% | | | | | | | 58,02% | | | | |
| İnflyasiya | 6 | 3 | 8 | 16 | 17 | 13 | 15 | 14 | 12 | 14 | 13 | 100% | 131 |
| | | 48,09% | | | | | | | 51,91% | | | | |
| İxtisaslı kadrların çatışmazlığı | 11 | 11 | 9 | 12 | 13 | 10 | 16 | 17 | 12 | 14 | 6 | 100% | 131 |
| | | 50,38% | | | | | | | 49,62% | | | | |
| Valyuta məzənnəsinin dəyişkənliyi | 4 | 13 | 7 | 14 | 12 | 18 | 8 | 8 | 18 | 14 | 15 | 100% | 131 |
| | | 51,91% | | | | | | | 48,09% | | | | |
| Korrupsiya | 19 | 15 | 8 | 10 | 9 | 7 | 10 | 8 | 8 | 18 | 19 | 100% | 131 |
| | | 51,91% | | | | | | | 48,09% | | | | |
| Gömrük nəzarəti | 14 | 11 | 13 | 16 | 9 | 10 | 13 | 13 | 11 | 11 | 10 | 100% | 131 |
| | | 55,73% | | | | | | | 44,27% | | | | |
| Vergi qaydaları | 5 | 10 | 14 | 16 | 11 | 18 | 8 | 14 | 11 | 15 | 9 | 100% | 131 |
| | | 56,49% | | | | | | | 43,51% | | | | |
| Maliyyə əldə etmə imkanı | 16 | 24 | 12 | 14 | 9 | 14 | 10 | 8 | 8 | 8 | 8 | 100% | 131 |
| | | 67,94% | | | | | | | 32,06% | | | | |
| Xarici valyuta əldə etmə imkanı | 30 | 17 | 20 | 8 | 18 | 5 | 10 | 7 | 8 | 6 | 2 | 100% | 131 |
| | | 74,81% | | | | | | | 25,19% | | | | |
| İnfrastruktur çatışmazlığı | 18 | 13 | 24 | 12 | 17 | 14 | 6 | 10 | 9 | 4 | 4 | 100% | 131 |
| | | 74,81% | | | | | | | 25,19% | | | | |

**Sual 7. 2017-ci ildə Azərbaycanda maliyyə sektorundakı zəifliklərin aradan qaldırılması və iqtisadi artımın təmin edilməsi üçün bir sıra islahatlar həyata keçirilmişdir. Aşağıdakı dövlət islahatlarının Azərbaycanda biznes və investisiya mühitini inkişaf etdirməkdə nə dərəcədə effektiv olduğunu düşünürsünüz?**




| Cavab seçimləri | Çox zəif | Zəif | Orta | Yaxşı | Çox yaxşı | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|
| "ASAN e-viza" portalının fəaliyyəti | 0 | 2 | 21 | 49 | 59 | 4,26 | 131 |
| Sahibkarlıq fəaliyyəti ilə əlaqədar yoxlamaların dayandırılmasının 2021-ci ilə qədər uzadılması | 5 | 13 | 41 | 35 | 37 | 3,66 | 131 |
| Gömrük sisteminin sadələşdirilməsi | 8 | 11 | 47 | 52 | 13 | 3,39 | 131 |
| Qida Təhlükəsizliyi Agentliyinin yaradılması | 6 | 15 | 58 | 38 | 14 | 3,30 | 131 |
| Kredit Zəmanət Fondunun yaradılması | 2 | 20 | 67 | 29 | 13 | 3,24 | 131 |
| KOS Agentliyinin yaradılması | 2 | 18 | 69 | 33 | 9 | 3,22 | 131 |
| Sənaye və yüksək texnologiyalar parklarında vergi təşviqləri | 6 | 20 | 61 | 28 | 16 | 3,21 | 131 |
| İxracın diversifikasiyası üçün institusional dəstək (məs., "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azexport portalı) | 3 | 21 | 68 | 32 | 7 | 3,15 | 131 |
| Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının qəbul etdiyi qərarlar və həyata keçirdiyi tədbirlər | 4 | 21 | 68 | 29 | 9 | 3,14 | 131 |
| Vergi sisteminin sadələşdirilməsi | 14 | 24 | 50 | 33 | 10 | 3,01 | 131 |
| PTT üzrə Strateji Yol Xəritəsində təsvir olunduğu kimi işəgötürənlərlə effektiv tərəfdaşlığın yaradılması | 9 | 23 | 72 | 22 | 5 | 2,93 | 131 |
| Maliyyə sektorunun sabitləşdirilməsi istiqamətində Maliyyə Bazarlarına Nəzarət Palatasının siyasətləri və tədbirləri | 10 | 31 | 55 | 31 | 4 | 2,91 | 131 |
| **Yekun** | | | | | | | **131** |

**Sual 8. Aşağıdakı islahatlardan hansının Azərbaycanda biznes və investisiya mühitini daha da inkişaf etdirməkdə ən böyük əhəmiyyətə malik olduğunu düşünürsünüz? [Uyğun gələn maksimum 3 variantı seçin]**



| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Vergi sistemində şəffaflığın daha da artırılması | 20% | 74 |
| Gömrük sistemində şəffaflığın daha da artırılması | 17% | 65 |
| Hüquqi sistemdə şəffaflığın təmin edilməsi (xüsusilə də müqavilənin icrası və iqtisadi mübahisələrin halli ilə bağlı) | 12% | 46 |
| Ölkədəki akademik və peşə təhsili sisteminin şirkətlərin tələblərinə uyğun gəlməsini təmin etmək | 12% | 45 |
| Xırda korrupsiya hallarının minimuma endirilməsi və bürokratiyanın azaldılması  məqsədilə elektron idarəetmənin təşviq edilməsi | 11% | 41 |
| Xarici sahibkarlar və investorlar üçün yaşayış və iş icazəsinin alınma prosedurlarının asanlaşdırılması | 9% | 34 |
| Maliyyə sektorunun şəffaflığının və sabitliyinin gücləndirilməsi | 7% | 27 |
| Dövlət satınalmalarında şəffaflığın təmin edilməsi | 7% | 26 |
| Azərbaycanın ÜTT-yə üzvlük prosesinin başa çatdırılması | 3% | 13 |
| Digər | 0,27% | 1 |
| **Yekun** | **100%** | **372** |

## Q9. Şirkətinizi Azərbaycana sərmayə qoymağa/Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən amillər nələrdir? [Uyğun gələn maksimum 2 variantı seçin]




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Daxili bazarlara çıxış | 33% | 76 |
| Strateji tərəfdaşlıq/müttəfiqlik | 28% | 64 |
| Texnologiya və ya bilikdən istifadə imkanları | 9% | 21 |
| Təbii ehtiyatlardan istifadə imkanı | 7% | 15 |
| İxrac bazarlarına çıxış | 5% | 12 |
| Aşağı istehsal xərcləri | 4% | 10 |
| İnvestisiyanın təşviqi (məsələn, vergi təşviqləri) | 4% | 10 |
| Digər | 4% | 8 |
| Təchizat zənciri riskinin diversifikasiyası | 3% | 7 |
| Yarımfabrikatlara və təchizatçılara çıxış | 2% | 5 |
| **Yekun** | **100%** | **228** |

## Sual 10. Azərbaycanı yenidən investisiya məkanınız olaraq seçərdinizmi?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Bəli | 66% | 87 |
| Xeyr | 10% | 13 |
| Əmin deyiləm | 24% | 31 |
| **Yekun** | **100%** | **131** |

## Sual 11. Növbəti bir-iki il ərzində Azərbaycanda şirkətinizin hansı istiqamətdə inkişaf edəcəyini düşünürsünüz?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Böyüyəcək | 53% | 73 |
| Sabit qalacaq | 36% | 50 |
| Kiçiləcək | 4% | 6 |
| Bağlanacaq | 4% | 5 |
| İstehsal Azərbaycanda təşkil olunacaq | 2% | 3 |
| Üçüncü bir ölkəyə köçəcək | 1% | 1 |
| **Yekun** | **100%** | **138** |

## Sual 11.1 Şirkətinizi digər bir ölkəyə köçürməyi planlaşdırdığınız halda, hansı ölkəni seçərdiniz?

| Cavab seçimləri | Cavabların sayı |
|---|---|
| Malta | 1 |

## Sual 12. Şirkətinizin əsas fəaliyyət sahəsini seçin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Yaşayış və Qida xidmətlərinin göstərilməsi | 2% | 3 |
| İnzibati və Dəstək Xidmətlərinin göstərilməsi | 5% | 6 |
| Kənd təsərrüfatı, Meşə təsərrüfatı və Balıqçılıq | 2% | 3 |
| İncəsənət, Əyləncə və İstirahət | 0% | 0 |
| Tikinti | 8% | 10 |
| Təhsil | 1% | 1 |
| Elektrik enerjisi, Qaz, Buxar və Kondisiyalaşdırılmış hava ilə Təchizat | 5% | 6 |
| Maliyyə və Sığorta | 6% | 8 |
| Səhiyyə və Sosial İş | 5% | 6 |
| İnformasiya və Kommunikasiya | 5% | 7 |
| İstehsal | 3% | 4 |
| Dağ-Mədən, Neft və Qaz | 14% | 18 |
| Peşəkar, Elmi və Texniki fəaliyyətlər | 17% | 22 |
| Dövlət İdarəetməsi və Müdafiə; İcbari Sosial Təminat | 1% | 1 |
| Nəqliyyat və Anbar təsərrüfatı | 8% | 11 |
| Su Təchizatı; Kanalizasiya, Tullantıların idarə edilməsi və emalı | 6% | 8 |
| Topdan və Pərakəndə Ticarət | 13% | 17 |
| **Yekun** | **100%** | **131** |

## Sual 13. Şirkətdəki vəzifənizi qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Baş İcraçı Direktor (CEO) | 47% | 62 |
| Müdir | 23% | 30 |
| Müdir müavini | 9% | 12 |
| İşçi | 6% | 8 |
| Baş menecer | 5% | 7 |
| İdarəedici partnyor | 5% | 6 |
| Sahibkar | 2% | 3 |
| Şöbə müdiri | 2% | 3 |
| **Yekun** | **100%** | **131** |

## Sual 14. Şirkətinizin işçilərinin sayını qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| 1-9 | 38% | 50 |
| 10-49 | 33% | 43 |
| 50-249 | 17% | 22 |
| 250-dən artıq | 12% | 16 |
| **Yekun** | **100%** | **131** |

## Sual 15. Şirkətinizin strukturunu təsvir edən ən uyğun variantı seçin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| 50%-dən çox Avropa İttifaqı mülkiyyəti | 13% | 17 |
| 50%-dən çox Azərbaycan və bir hissəsi Avropa İttifaqı mülkiyyəti | 7% | 9 |
| 50%-dən çox Azərbaycan mülkiyyəti və bir hissəsi Avropa İttifaqından kənar mülkiyyət | 2% | 2 |
| 100% Avropa İttifaqı mülkiyyəti | 56% | 74 |
| 100% Azərbaycan mülkiyyəti ilə Avropa İttifaqı mallarının və xidmətlərinin idxalı | 21% | 27 |
| Digər | 2% | 2 |
| **Yekun** | **100%** | **131** |

## Sual 16. Şirkətinizin baş iqamətgahı hansı ölkədə qeydiyyatdadır?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Almaniya | 23% | 30 |
| Azərbaycan | 20% | 26 |
| Birləşmiş Krallıq | 11% | 15 |
| Fransa | 10% | 13 |
| İtaliya | 8% | 10 |
| Hollandiya | 6% | 8 |
| İsveçrə | 5% | 6 |
| Avstriya | 2% | 3 |
| Belçika | 2% | 3 |
| Xorvatiya | 2% | 2 |
| Macarıstan | 2% | 2 |
| İspaniya | 2% | 2 |
| İsveç | 2% | 2 |
| Çexiya | 1% | 1 |
| Danimarka | 1% | 1 |
| Finlandiya | 1% | 1 |
| Litva | 1% | 1 |
| Lüksemburq | 1% | 1 |
| Norveç | 1% | 1 |
| Filippin | 1% | 1 |
| Rumıniya | 1% | 1 |
| Sloveniya | 1% | 1 |
| **Yekun** | **100%** | **131** |

## Sual 17. Şirkətinizin Azərbaycanda yaranma tarixini qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| <1990 | 2% | 3 |
| 1990-2000 | 26% | 34 |
| 2001-2010 | 35% | 46 |
| >2010 | 37% | 48 |
| **Yekun** | **100%** | **131** |

## Sual 18. Şirkətinizin Azərbaycandakı hüquqi formasını seçin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Səhmdar Cəmiyyət (SC) | 5% | 7 |
| Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) | 54% | 71 |
| Tərəfdaşlıq | 6% | 8 |
| Nümayəndəlik | 27% | 36 |
| Digər | 7% | 9 |
| **Yekun** | **100%** | **131** |

# Əlavə C: Statistik məlumatlar

## Doing Business 2018 Hesabatı: Biznes mühitinin yaxşılaşdırılması istiqamətində cüzi irəliləyiş[12]

Azərbaycanda biznes fəaliyyətində mövcud olan maneələrin aradan qaldırılması üçün bir sıra islahat tədbirləri həyata keçirilmişdir. 2017-ci il ilə müqayisədə, ölkə Dünya Bankının “Doing Business 2018” hesabatında biznes fəaliyyəti ilə bağlı 10 indikatordan 6-sı üzrə irəliləyiş əldə edib: I) elektrik enerjisinin əldə edilməsi (2017-ci ildə 105-ci yer ilə müqayisədə 102-ci yer), II) əmlakın qeydiyyata alınması (2017-ci il ilə müqayisədə bir pillə irəliləyərək 21-ci yer), III) kiçik investorların hüquqlarının qorunması (2017-ci il ilə müqayisədə 22 pillə irəliləyərək 10-cu yer) , IV) vergilərin ödənilməsi (5 pillə irəliləyərək 35-ci yer), V) müqavilələrin icrası (2017-ci il ilə müqayisədə 6 pillə irəliləyərək 38-ci yer), VI) müflisləşmənin həlli (ötən ilə müqayisədə 86-cı yerdən xeyli irəliləyərək 47-ci yer). Nəticədə, Azərbaycan Dünya Bankının “Doing Business 2018” hesabatında 190 ölkə arasında 2017-ci il ilə müqayisədə 65-ci pillədən 57-ci pilləyə yüksəlib. Buna baxmayaraq, tikintiyə icazələrin verilməsi (2017-ci il ilə müqayisədə 34 pillə geriləyərək 161-ci yer), sərhəddə ticarət (2017-ci ildə olduğu kimi, 83-cü yer) və kreditin əldə edilməsi (2017-ci il ilə müqayisədə 4 pillə geriləyərək 122-ci yer) göstəriciləri üzrə Azərbaycan hələ də region üzrə orta səviyyədən aşağı göstəricilərə malikdir. Ölkənin biznes mühitinin mühüm nailiyyəti hesab edilən “biznesə başlama” göstəricisi üzrə Azərbaycan 2017-ci ildəki 5-ci yerdən geriləyərək 2018-ci ildə 18-ci yerdə qərarlaşıb. Bu isə əsasən digər ölkələrin yaxşı fəaliyyət göstərməsi, Azərbaycanın isə biznesə başlama ilə bağlı sistemdə dəyişiklik etməməsi ilə bağlıdır.

## Qlobal Rəqabətlilik Hesabatı: ölkənin rəqabətdavamlılığının yaxşılaşdırılmasında cüzi irəliləyiş[13]

Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 2016-2017-ci illər ilə müqayisədə 2 pillə irəliləyərək 137 ölkə arasında 35-ci yerdə qərarlaşıb. Qeyd etmək lazımdır ki, Azərbaycan hesabatda indeksin tərtib edilməsində istifadə olunan göstəricilərin əksəriyyəti (təsisatlar, infrastruktur, səhiyyə/təhsil kimi əsas tələblər; ali təhsil bazarının həcmi və texnoloji hazırlıq kimi səmərəliliyi artıran faktorlar və biznesin inkişafı və innovasiya kimi innovasiyanı artıran amillər) üzrə öz mövqeyini yaxşılaşdırsa və ya qoruyub saxlasa da, makroiqtisadi mühitin bütün göstəriciləri üzrə geriləyib. Belə ki, Azərbaycan inflyasiya səviyyəsinin və borcun ÜDM-ə nisbətinin artması və xalis gəlirin azalması nəticəsində 2017-ci ildəki 39-cu pillədən 65-ci pilləyə enib.

## Aİ ilə Azərbaycan arasında Ticarət

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən təqdim edilən statistikaya əsasən, ölkənin ticarət dövriyyəsində 2017-ci ildə 11%-ə qədər durğunluq yaşanılıb, bu isə ixrac və idxalın müvafiq olaraq 6,5% və 17,6% azaldığını əks etdirir. Bununla belə, Aİ ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşı olmağa davam edir və ölkənin ümumi ixracının 43%-ni, ümumi idxalının isə 26%-ni təşkil edir.

Asiya İnkişaf Bankı neftin qiymətinin artması nəticəsində 2018-ci ildə ixracın artacağını, 2019-cu ildə isə neft hasilatının və neft qiymətlərinin nisbətən aşağı düşməsi ilə ixracın 3,5% azalacağını proqnozlaşdırır. Digər tərəfdən isə maşın və maşın avadanlıqlarına qoyulan gömrük rüsumları səbəbindən ixracın 2018-ci ildə 6% azalacağı gözlənilir.

**Ümumi əmtəə: Aİ ticarət axını və balans, illik məlumat 2006-2017**

Mənbə: Avropa İttifaqı, Azərbaycan ilə ticarət - http://trade.ec.europa.eu/doclib/docs/2006/september/tradoc_113347.pdf




# İstinadlar


1. Azərbaycan Nazirliyinin sahibkarlıq sahəsində yoxlamaların dayandırılma müddətinin uzadılması haqqında rəyi. (2017, 7 noyabr). 12 aprel, 2018-ci ildə daxil olunub, https://www.azernews.az/business/121791.html
2. Abbasova, N. (2017, 14 fevral). Sahibkarlıq sahəsində yoxlamaların sayı kəskin azalır. 13 aprel, 2018-ci ildə daxil olunub, https://www.azernews.az/business/108869.html
3. 2017-ci il üzrə IV Maddə Məsləhətləşmələri barədə işçi heyətinin hesabatı. (2018). Beynəlxalq Valyuta Fondu (BVF). Nəşr edilməmiş hesabat
4. Moody's Azərbaycan Beynəlxalq Bankının öhdəliklərinin restrukturizasiyası planı xarici kreditorlar tərəfindən qəbul edildikdən sonra bankın reytinqlərini yüksəldib, hesabatı tamamlayıb. (2017, 25 iyul). 4 may, 2018-ci ildə daxil olunub, https://www.moodys.com/research/Moodys-upgrades-International-Bank-of-Azerbaijan-following-creditors-agreement-on--PR_370084
5. 2017-ci il üzrə IV Maddə Məsləhətləşmələri barədə işçi heyətinin hesabatı. (2018). Beynəlxalq Valyuta Fondu (BVF). Nəşr edilməmiş hesabat
6. Banklarda manat əmanətlər çoxalır, ancaq hələ də valyuta əmanətləri manatı iki dəfə üstələyir. (2018, 6 fevral). 17 aprel, 2018-ci ldə daxil olunub, http://www.baki-xeber.com/iqtisadiyyat/72919.html
7. 2017-ci il üzrə IV Maddə Məsləhətləşmələri barədə işçi heyətinin hesabatı. (2018). Beynəlxalq Valyuta Fondu (BVF). Nəşr edilməmiş hesabat
8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2018 aprel)
9. 2017-ci il üzrə IV Maddə Məsləhətləşmələri barədə işçi heyətinin hesabatı. (2018). Beynəlxalq Valyuta Fondu (BVF). Nəşr edilməmiş hesabat
10. 21-ci illik Qlobal CEO Sorğusu - PwC Qlobal. (n.d.). 18 aprel, 2018-ci ildə daxil olunub, https://www.pwc.com/gx/en/ceo-agenda/ceosurvey/2018/gx.html
11. Nothnagel, I., Krietenbrink, S., & Andrae, K. (2018). "İqtisadiyyat sürətlə inkişaf edir, əngəllər artır": Ticarət və Sənaye Palatalarında DIHK İqtisadi Sorğusu.
12. "Doing Business 2018": 190 ölkədə yerli şirkətlər üçün biznes tənzimləməsinin müqayisəsi. (2018).
13. Schwab, K. (2017). Qlobal Rəqabətlilik Hesabatı 2017–2018, Dünya İqtisadi Forumu.

# Nəşr

## İşçi qrupu və əlaqələndirici şəxslər

**Tədqiqat və məlumatların təhlili:**
Nigar Bayramlı, Günay Mirzəyeva, Turac Məmmədli

**Üzbəüz müsahibələr:**
Nigar Bayramlı, Günay Mirzəyeva, Turac Məmmədli

**Mətn və tərtibat**
Nigar Bayramlı, Günay Mirzəyeva

**Redaktə**
Tobias Baumann, Nigar Bayramlı, Ian Peart

**İngilis dilindən tərcümə**
Tərlan Arzumanov, Günay Mirzəyeva

**Qrafik dizayn**
Orxan Atakişiyev

**Şəkillər**
Shutterstock

**Sorğu və hesabat haqqında əlavə məlumat üçün:**
Nigar Bayramlı
Bazarın Təhlili və Kommunikasiya şöbəsinin rəhbəri
nigar.bayramli@ahk-baku.de

## AHK Azərbaycan haqqında

Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) rəsmi olaraq 2012-ci ildə Bakıda təsis edilmiş Almaniya xarici ticarətinin Azərbaycanda təşviqi müəssisəsidir. 2018-ci ilin may ayına görə, tərkibinə 128-dən artıq Alman və Azərbaycan şirkətinin üzv olduğu AHK Azərbaycan, Azərbaycanda fəaliyyət göstərən Alman şirkətlərinin biznes maraqlarını təmsil edən və öz peşəkar biznes xidmətlərini və təcrübəsini Alman və Azərbaycan şirkətlərinə təklif edən dünya üzrə AHK şəbəkəsinin bir hissəsidir.

Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan)
Winter Park plaza, 7-ci mərtəbə
Rəsul Rza küçəsi 75
AZ 1014 Bakı, Azərbaycan
Tel: +994 12 497 63 06/07
E-mail: mail@ahk-baku.de
www.ahk-baku.de

Bu nəşr Alman-Azərbaycan Xarici Ticarət Palatası və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi arasındakı əməkdaşlıq çərçivəsində dərc edilmişdir. Bu hesabat 2018-ci ilin əvvəlində keçirilmiş biznes mühiti sorğusunun nəticələri əsasında hazırlandığına görə, yalnız ümumi məlumat kitabçasıdır və rəsmi statistik mənbə kimi istinad üçün nəzərdə tutulmamışdır.

©2018 Bütün hüquqlar qorunur.



**<u>Məsuliyyətdən imtina</u>**

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu sənədin məzmunu tamamilə Alman-Azərbaycan Xarici Ticarət Palatasının məsuliyyətidir və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.